RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 246 (9125) ŞƏNBƏ, 12 noyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Azərbaycan türk dünyasının birliyi amallarına sadiqdir

## Prezident İlham Əliyev IX Zirvə görüşündə türk dövlətlərinin başçılarını Qarabağa və Şərqi Zəngəzura dəvət etdi

Noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

→ 2





♦ 12 Noyabr Konstitusiya Günüdür

## Dövlətimizin Qanun sütunu



Ölkədə ictimai-siyasi sabitlik bərqərar olunandan sonra həyata keçirilən məqsədyönlü siyasət nəticəsində qanunçuluq və hüquq qaydası bərpa edildi. Bütün bunlar isə Azərbaycan xalqının və dövlətinin tarixində ilk milli Konstitusiyanın qəbul edilməsi üçün lazımi ictimai-siyasi şəraitin yaradılması ilə nəticələndi. 1995-ci il noyabrın 12-də Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəd idi. Konstitusiyanın qəbulu dövlətçiliyimizin möhkəmləndirilməsi, Azərbaycanın dünya birliyində nüfuzunun daha da artması baxımından çox mühüm ictimai-siyasi hadisə kimi qiymətləndirilməlidir. Müasir dövrümüzdə Azərbaycan Respublikasının konstitusion dövlət kimi təşəkkül tapması, ölkədə ictimai-siyasi proseslərlə müşayiət olunan tarixi şərait bu müstəvidə fəaliyyət göstərən görkəmli siyasi liderlərin dinamik mübarizə xətti ilə bağlıdır.

→ 6

## Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçıları Səmərqəndin "Registan" meydanında ağac əkiblər



→ 3

## Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinə

Hörmətli Milli Olimpiya Komitəsi üzvləri!

Sizi, eləcə də ölkəmizin bütün idman ictimaiyyətini Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin yaradılmasının 30 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı yetirir və gələcək işlərinizdə yeni uğurlar diləyirəm.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, 1992-ci ildə təsis olunan Milli Olimpiya Komitəsi ötən müddət ərzində ölkəmizin öz idman potensialını tam gerçəkləşdirməsi naminə daim var qüvvəsi ilə çalışmışdır. Komitə nailiyyətlərlə zəngin şərəfli bir yol keçmiş və işini yalnız Olimpiya oyunlarında iştirakla məhdudlaşdırmayaraq, respublikada Olimpiya ideallarının bərqərar olmasında və idmanın dinamik inkişaf etdirilməsində təqdirəlayiq xidmətlər göstərmişdir. Qurumun fəaliyyətinin səmərəli təşkilinin nəticəsidir ki, idmançılarımız Olimpiya oyunlarında, Avropa və dünya çempionatlarında çoxsaylı müvəffəqiyyətlər qazanmışlar.

Respublikamızda idmana diqqət dövlət siyasətinin prioritetlərindəndir. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində aparılan işlər, o cümlədən yaradılmış ən müasir idman infrastrukturu, olimpiya kompleksləri, ixtisaslaşmış idman məktəbləri bunun əyani təsdiqidir. Xüsusi vurğulamaq istərdim ki, mötəbər beynəlxalq idman yarışlarının keçirilməsində böyük təcrübə əldə olunmuşdur. Bu gün yüksəliş dövrünü yaşayan və bayrağımızı dünyanın hər yerində dalğalandıran idmanımızın tarixinə parlaq səhifələr yazılmaqdadır. Azərbaycan idman sahəsində nəhəng layihələr reallaşdıraraq uğurlara imza atmış ölkə kimi artıq dünya miqyasında tanınır.

Milli Olimpiya Komitəsi idmançılarımızın Olimpiya oyunlarındakı qələbələrinə dəyərli töhfələr verən və yüksəksəviyyəli qarşılıqlı əməkdaşlıq əlaqələri quraraq hazırda qitənin olimpiya qurumları arasında ön sıralarda dayanan nüfuzlu təşkilatlardan birinə çevrilmişdir. İnanıram ki, komitə Olimpiya Xartiyasının başlıca prinsipləri əsasında respublikamızda Olimpiya hərəkatının qarşıdakı illərdə daha geniş vüsət alması üçün imkan və bacarığını bundan sonra da əsirgəməyəcək, nailiyyətləri ilə ictimai həyatımızdakı əhəmiyyətli mövqeyini qoruyub saxlayacaqdır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 noyabr 2022-ci il*



## Səmərqənddə Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistan Parlamenti Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub

→ 3

## "Əbədi şəhər" tarixi-etnoqrafik kompleksi ilə tanışlıq



→ 4

## "Zamanın ilğımları" sərgisində



→ 4

## Səmərqənddə dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub

Noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## Prezident İlham Əliyevin Özbəkistana səfəri başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına səfəri noyabrın 11-də başa çatıb.

## Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri

# Azərbaycan türk dünyasının birliyi amallarına sadiqdir

## Prezident İlham Əliyev IX Zirvə görüşündə türk dövlətlərinin başçılarını Qarabağa və Şərqi Zəngəzura dəvət etdi

*Əvvəli 1-ci səh.*

Özbəkistan Prezidenti **Şavkat Mirziyoyev** Dövlət Başçıları Şurasının iclasını açaraq qonaqları salamladı və çıxış etdi, müzakirə olunacaq məsələlərdən, Türk Dövlətləri Təşkilatının qarşısında duran vəzifələrdən və əməkdaşlığın genişləndirilməsi perspektivlərindən danışdı.

Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri **Qurbanqulu Berdiməhəmmədov** Səmərqənd Sammitinin türk dövlətləri arasında əlaqələrin daha da inkişafına mühüm töhfə verəcəyini vurğuladı, əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətindən danışdı.

Türkiyə Prezidenti **Rəcəb Tayyib Ərdoğan** çıxışında Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin ikinci ildönümü münasibətilə təbriklərini çatdıraraq dedi: "Cənubi Qafqazda sülh prosesi Can Azərbaycanın bütün səylərinə baxmayaraq, hələ də kövrək olaraq qalır. Noyabrın 8-də qeyd etdiyimiz şanlı Qarabağ zəfərinin ikinci ildönümündə əziz şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzulayıram. İlham qardaşımızın şəxsində Azərbaycan xalqını bir daha təbrik edirəm. Haqlı mübarizəsində olduğu kimi, sülh axtarışında da Azərbaycanın yanındayıq".

Azərbaycan ilə Türkiyənin birgə reallaşdırdığı nəhəng layihələrin dünya miqyasında mühüm əhəmiyyətini xüsusi qeyd edən Prezident Rəcəb Tayyib Ərdoğan bildirdi: "Bakı-Tbilisi-Ceyhan neft boru kəməri qlobal miqyasda ən uğurlu enerji layihələri arasındadır. "Cənub qaz dəhlizi" isə Avropaya qaz nəql edəcək dördüncü arteriya olaraq layihələndirilib. Onurğa sütununu Trans-Anadolu təbii qaz boru kəmərinin təşkil etdiyi bu dəhliz əlavə qaz tədarükü ilə daha da genişləndirilə bilər. Xəzər hövzəsi bunun üçün ağla ilk gələn mənbədir. Enerji sahəsində təşkilatımızın nəzdində və ikitərəfli səviyyədə əməkdaşlıqla həyata keçirəcəyimiz ortaq layihələrə bu baxımdan böyük önəm veririk".

Dövlətimizin başçısı Zirvə görüşündə çıxış etdi.








### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Hörmətli Şavkat Miromonoviç.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar.

Son 7 ayda üçüncü dəfə qardaş Özbəkistana səfər edirəm. Aprel ayında Özbəkistanda dövlət səfərində olmuşam, sentyabr ayında Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Zirvə görüşündə iştirak etmişəm. Bu gün yenidən Səmərqənd şəhərində olmaqdan çox məmnunam.

Bu səfərlər zamanı Özbəkistanda gedən genişmiqyaslı quruculuq işləri ilə yaxından tanış olmaq imkanım olmuşdur. Əldə edilmiş nailiyyətlər münasibətilə qardaşım, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi və qardaş özbək xalqını təbrik edirəm. Səfərlər zamanı Prezident Şavkat Mirziyoyev ilə apardığım müzakirələr onu göstərir ki, Azərbaycan-Özbəkistan əlaqələri daha da yüksək səviyyəyə qalxmışdır.

Türk Dövlətləri Təşkilatının Zirvə görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Prezident Şavkat Mirziyoyevə minnətdarlığımı bildirirəm.

Qardaş Türkiyəyə bir il ərzində təşkilatımızda uğurlu sədrlik münasibətilə təşəkkür edir, qardaş Özbəkistana sədrliyi dönəmində uğurlar arzulayıram.

Hörmətli həmkarlar, Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir.

Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amallarına sadiq qalacaq. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən başlayaraq təşkilatımız böyük inkişaf yolu keçmişdir.

Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir.

Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq.

Türk dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil, onun coğrafi sərhədləri daha genişdir. Hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı gəlib çatmışdır.

Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır. Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur.

Türk dövlətlərindən kənarda yaşayan soydaşlarımızın öz ana dilində təhsil almaları daim təşkilatın gündəliyində olmalıdır. Bu istiqamətdə lazımi addımlar atılmalıdır.

Azərbaycan dövləti xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlığının, təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət yetirir. Biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlamaları, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi Vətənləri ilə əlaqələrin heç vaxt kəsilməməsi üçün səylərimizi davam etdirəcəyik.

Hörmətli həmkarlar, bu həftə Azərbaycan xalqı Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasının ikinci ildönümünü böyük qürur hissi ilə qeyd etdi. İki il əvvəl biz Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyduq, tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdik. Bununla Azərbaycan həm də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini özü icra etdi.

Otuzillik işğal bitsə də, onun ağır fəsadları hələ də qalmaqdadır. Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Ermənistan tərəfindən yer üzündən silinib. Vaxtilə böyük və çiçəklənən şəhər olmuş Ağdam o dərəcədə dağıdılıb ki, xarici ekspertlər onu "Qafqazın Xirosiması" adlandırırlar. Ermənistan işğal zamanı 67 məsciddən 65-ni yerləyeksan edib, qalan 2 məscid isə ciddi zərər görüb və donuz, inək saxlanılması üçün istifadə olunub. Bu, bütün müsəlman dünyasına təhqirdir. İslamofobiya və türkofobiya Ermənistanın rəsmi ideologiyasının bünövrəsini təşkil edir.

Ermənistan işğal zamanı bizim ərazilərimizdə bir milyondan çox mina basdırıb. Vətən müharibəsindən ötən iki il ərzində 270-ə yaxın Azərbaycan vətəndaşı mina partlayışları zamanı həlak olub və ya ağır yaralanıb.

Azərbaycan işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri aparır. Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Böyük qayıdış proqramının icrasına başlamışıq. Bu prosesdə Türkiyə şirkətləri podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak edirlər. Əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlara üç dəfə səfər edib, Şuşada, Füzulidə, Zəngilanda və Cəbrayılda olub.

Mən digər türk dövlətlərinin başçılarını da Qarabağa və Şərqi Zəngəzura dəvət edirəm. Fürsətdən istifadə edərək, mən işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən tikiləcək məktəbə və Qazaxıstan tərəfindən inşa olunacaq yaradıcılıq mərkəzinə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə minnətdarlığımı bildirirəm. Bunlar Azərbaycan-özbək və Azərbaycan-qazax xalqları arasında olan qardaşlığın təzahürüdür.

İkinci Qarabağ müharibəsinin başa çatmasından iki il keçməsinə baxmayaraq, Ermənistan sərhəddə hərbi təxribatlarını davam etdirir. Son olaraq sentyabr ayında Azərbaycan Silahlı Qüvvələri Ermənistanın hərbi təxribatının qarşısını almaq üçün qətiyyətli əks-hücum əməliyyatına başlamağa məcbur oldu.

Ermənistan dünya ictimai rəyini çaşdırmaq üçün əsassız olaraq Azərbaycanı hərbi təcavüzdə günahlandırmağa çalışır. Bu əsassız iddiaları qəti şəkildə rədd edirik. Biz öz torpaqlarımızda vuruşmuşuq və Ermənistan ordusunu məğlub edərək onları əzəli torpaqlarımızdan qovmuşuq. Biz bu gün də Azərbaycan-Ermənistan sərhədi istiqamətində öz doğma torpaqlarımızdayıq.

Oktyabr ayında Praqada və Soçidə qəbul edilmiş birgə bəyanatlarda Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıdı. Bu, bir daha onu göstərir ki, Qarabağ münaqişəsi tarixdə qaldı.

İkinci Qarabağ müharibəsinin nəticələri bölgə üçün yeni imkanlar açır. Azərbaycan Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir və dəhlizlə bağlı öz ərazisində genişmiqyaslı fəaliyyət həyata keçirir. Zəngəzur dəhlizinin açılmasından bütün region ölkələri faydalanacaq.

Əziz dostlar, biz Bağdad Amreyevin Türk Dövlətləri Təşkilatının baş katibi kimi fəaliyyətini yüksək qiymətləndiririk. Türk dünyasının birliyinə verdiyi töhfə və xidmətləri nəzərə alınaraq, Bağdad Amreyev Azərbaycanın yüksək dövlət mükafatı olan "Dostluq" ordeni ilə təltif edilmiş və oktyabr ayının 21-də bu orden mənim tərəfimdən ona təqdim edilmişdir. Bir daha təbrik edirəm.

Çıxışımın sonunda bir daha qeyd etmək istəyirəm ki, biz Özbəkistanı bu Zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə təbrik edirik, türk dünyası xalqlarına sülh, rifah, xoşbəxtlik arzulayırıq. Sağ olun.

* * *

Qazaxıstan Prezidenti **Kasım-Jomart Tokayev** çıxışında türk dövlətləri arasında informasiya texnologiyalarının, nəqliyyat və tranzit dəhlizlərinin inkişafı ilə bağlı əməkdaşlığın önəmini vurğuladı. O, bu baxımdan üç qardaş dövlətin - Qazaxıstan, Azərbaycan və Türkiyənin ərazisindən keçən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əhəmiyyətini xüsusi qeyd etdi.

Qırğızıstan Prezidenti **Sadır Japarov** çıxışında ölkəsinin Azərbaycanla münasibətlərinin yeni səviyyəyə yüksəldiyini vurğulayaraq bildirdi: "Son vaxtlar biz mənim əziz dostum Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevlə qarşılıqlı səfərlər edib dövlətlər arasında münasibətlərimizi yeni strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişik".

Macarıstanın Baş naziri **Viktor Orban** Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın mühüm rolunu xüsusilə qeyd edərək dedi: "Mən qardaşım Prezident İlham Əliyevə minnətdarlığımı bildirmək istəyirəm. Çünki Azərbaycan bizim üçün yeganə real şaxələndirmə şansıdır. Qardaşım İlham Əliyevə, həmçinin bizim Azərbaycan üçün "yaşıl enerji"ni Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan əməkdaşlığına gətirmək təşəbbüsümüzü tamamilə dəstəklədiyi üçün təşəkkürümü bildirmək istəyirəm. Mən bu əməkdaşlığa çox ümid bəsləyirəm".

Türk Dövlətləri Təşkilatının baş katibi **Bağdad Amreyev** təşkilat çərçivəsində əməkdaşlıqdan danışarkən bu qurumun Azərbaycanın ərazi bütövlüyünə daim dəstək verdiyini bildirdi: "Bizim əməkdaşlığımız əhəmiyyətli dərəcədə inkişaf edib. Ölkələrimiz qardaş Azərbaycan torpaqlarının işğaldan azad olunması və ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə Bakını möhkəm dəstəkləməklə yekdilliyimizi bütün dünyaya nümayiş etdirdi".

Təşkilatın yeni baş katibi **Kubanıçbek Ömüralıyev** çıxış edərək ona göstərilən etimada görə minnətdarlığını bildirdi, üzv ölkələr arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün səylə çalışacağını dedi.

Daha sonra bir sıra sənədlər, o cümlədən Səmərqənd Bəyannaməsi imzalandı.

* * *

Sonra mükafatlandırma mərasimi oldu.

Özbəkistan Prezidenti **Şavkat Mirziyoyev** mərasimdə çıxış edərək Zirvə görüşündə müzakirə olunan məsələlərin əhəmiyyətindən danışdı, çox mühüm sənədlərin imzalandığını və razılaşmaların əldə olunduğunu qeyd etdi.

Türk dövlətləri arasında dostluğun və tərəfdaşlığın möhkəmlənməsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun xüsusi xidmətlərinin olduğunu vurğulayan Prezident Şavkat Mirziyoyev onların Türk Dünyasının Ali Ordeni ilə təltif edildiklərini bildirdi.

Prezident Şavkat Mirziyoyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova Türk Dünyasının Ali Ordenini təqdim etdi.

Qeyd olundu ki, Özbəkistan Prezidentinin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatı çərçivəsində Əlişir Nəvai adına Beynəlxalq Mükafat təsis edilib. Həmin mükafatın ilk sahibi türk dünyasının birliyinə və inkişafına verdiyi töhfələrə görə dünyaşöhrətli qırğız yazıçı və ictimai xadim Çingiz Aytmatov olub.

Çingiz Aytmatovun ölümündən sonra layiq görüldüyü Əlişir Nəvai mükafatı Qırğızıstan Prezidenti Sadır Japarova təqdim edildi.

Prezident Sadır Japarov Əlişir Nəvai adına Beynəlxalq Mükafatın təsis edilməsinin türk dövlətlərinin mədəniyyət sahəsində əməkdaşlığının inkişafının göstəricisi olduğunu vurğuladı.

Türk Dünyasının Ali Ordeni ilə təltif olunmasına görə minnətdarlığını bildirən Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov türk dövlətləri arasında əməkdaşlığın bütün sahələrdə inkişafının vacibliyini qeyd etdi.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu yüksək mükafatla təltif olunmasına görə minnətdarlığını bildirdi, son illərdə türk dövlətləri arasında əməkdaşlığın sürətlə inkişaf etdiyini vurğuladı. Çıxışında Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə həyata keçirdiyi genişmiqyaslı işlərdən söhbət açan Prezident Rəcəb Tayyib Ərdoğan dedi: "Qarabağla əlaqədar çox ciddi mübarizə aparan və bu mübarizəni hazırda infrastrukturun qurulması ilə ən yüksək səviyyədə davam etdirən qardaşım İlham Əliyevin iki ildə bu sahədə nələr bacardığını, nələri ortaya qoyduğunu görürük. Dəfələrlə həmin ərazilərdə tədbirlərə qatılmaq, həyata keçirilən işləri yerində görmək imkanım oldu. Bu işləri yerində gördükdə bir türk olaraq iftixar hissi keçirdim. Çox qısa müddətdə bu qədər nailiyyət həqiqətən bizim üçün qürur mənbəyidir".

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri

## Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçıları Səmərqəndin "Registan" meydanında ağac əkiblər

Noyabrın 11-də Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçıları "Yaşıl məkan" layihəsi çərçivəsində Səmərqəndin "Registan" meydanında ağac əkiblər.





AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ağacəkmə mərasimində iştirak edib.

Qeyd edək ki, mühüm tarixi hadisələrin şahidi olan möhtəşəm "Registan" meydanında ağacəkmə mərasimi türk dünyası sivilizasiyasının yeni mərhələyə qədəm qoymasını təcəssüm etdirir. Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi statusa malik ölkələrin paytaxtlarında da eyni vaxtda təşkil edilən ağacəkmə tədbirləri onlayn qaydada monitorda nümayiş etdirildi.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tədbirdə çıxış edərək dövlət və hökumət başçılarını qədim Turanın incisi Səmərqənddə salamlamaqdan məmnunluğunu bildirdi və bu Zirvə görüşündə mühüm sənədlərin, o cümlədən türk dünyası sivilizasiyasında yeni mərhələnin başlanğıcı olan Səmərqənd Bəyannaməsinin imzalandığını vurğuladı.

Prezident Şavkat Mirziyoyev təşkilata üzv və müşahidəçi ölkələrdə ağacəkmə aksiyalarının keçirilməsinin qlobal problemlərdən olan ana təbiətin qorunub saxlanmasına verilən önəmin göstəricisi olduğunu dedi. Ətraf mühitin mühafizəsi ilə bağlı Azərbaycanda uzun illərdir "Yaşıl marafon" proqramı əsasında ağacəkmə aksiyalarının keçirildiyini qeyd edən Prezident Şavkat Mirziyoyev belə təşəbbüslərin təşkilata üzv və müşahidəçi ölkələrdə də davamlı olaraq reallaşdırıldığını, qardaş Türkiyədə hər il noyabrın 11-nin Milli Yaşıllaşdırma Günü olduğunu bildirdi.

Dövlət başçıları "Registan" meydanında ağac əkdilər. Sonda xatirə şəkli çəkdirildi.

## Səmərqənddə Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistan Parlamenti Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub



Noyabrın 11-də Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Parlamenti Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Qurbanqulu Berdiməhəmmədov Vətən müharibəsində Qələbənin ikinci ildönümü münasibətilə özünün və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun təbriklərini Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev öz növbəsində Qurbanqulu Berdiməhəmmədovu Türk Dünyasının Ali Ordeni ilə təltif olunması münasibətilə təbrik etdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Türkmənistan və Azərbaycan bütün sahələrdə qardaşlıq, dostluq münasibətləri nümunəsi göstərir və bugünkü görüş də əlaqələrimizin inkişafına yaxşı təkan verəcək.

Görüşdə energetika, nəqliyyat, kənd təsərrüfatı sahələrində əməkdaşlığın perspektivləri müzakirə olundu.

# Daha möhtəşəm zirvələrə doğru

## Türk Dövlətləri Təşkilatının çətiri altında birləşən qardaş ölkələr arasında münasibətlər getdikcə daha da möhkəmlənir

"Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir. Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq".

Noyabrın 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə Prezident İlham Əliyevin səsləndirdiyi bu fikirlər bir daha təsdiq etdi ki, Azərbaycan 2009-cu ildən, yəni qurum yarandığı gündən bu istiqamətdə çox mühüm addımlar atıb. Azərbaycan həm Türk Dövlətləri Təşkilatı çərçivəsində, həm də ikitərəfli əsasda quruma üzv dövlətlərlə sıx əməkdaşlıq edir. Bu xüsusda Prezident İlham Əliyevin Türkiyə, Qırğızıstan, Qazaxıstana və son 7 ayda Özbəkistana üç səfəri müstəsna əhəmiyyət kəsb edir.

### Naxçıvandan başlanan 13 illik uğurlu yol

Türk Dövlətləri Təşkilatı (əvvəlki adı - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası. red) türkdilli ölkələrin dövlət başçılarının 2009-cu il oktyabr ayının 3-də Naxçıvanda keçirilən Zirvə görüşündə imzalanmış "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması" haqqında sazişə əsasən təsis edilib.

Ötən ilə qədər Türk Şurası adlandırılan Türk Dövlətləri Təşkilatı (TDT) son 13 ildə böyük inkişaf yolu keçib. İllər öncə imzalanmış sazişə əsasən şuranın məqsədi türk dövlətləri arasında qarşılıqlı dostluğun möhkəmləndirilməsi, regionda və ümumilikdə dünyada sülhün qorunması, siyasi, ticari-iqtisadi, hüquq-mühafizə, təbiətin mühafizəsi, mədəni, elmi-texniki, hərbi-texniki, təhsil, enerji, nəqliyyat və ümumi maraq kəsb edən digər sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın edilməsi, bütün sahələrdə qarşılıqlı əlaqənin və ölkələr arasında təmasların təşviqi və sairdir.

Bu dövrdə üzv dövlətlər şuranın məqsəd və prinsiplərinə uyğun olaraq əməkdaşlığın yeni formatlarını qurublar. Belə ki, Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRK PA), Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatası və Türk Biznes Şurası kimi qurumların yaradılması nəticəsində TDT çərçivəsində üzv ölkələr arasında əlaqələr sürətlə genişlənib.

Azərbaycan TDT-nin fəaliyyətini hər zaman dəstəkləyir və təşkilatın çətiri altında qardaş xalqlar arasında münasibətlərin daha da möhkəmləndirilməsi üçün qlobal təşəbbüslər irəli sürür. Münasibətlərin inkişafı ilə bağlı Azərbaycanın hər zaman irəli sürdüyü təkliflər türkdilli dövlətlərin birliyinin daha da gücləndirilməsini şərtləndirib.

### Azərbaycan türk dövlətlərinin birliyinə mühüm töhfələr verib

Hazırda bütün dövlətlər sülhün və sabitliyin qorunması, eləcə də sosial-iqtisadi rifahın və mədəni zənginliyin təmin olunması kimi müasir çağırışlarla üzləşirlər. Ona görə də ortaq mədəni və mənəvi dəyərlərlə bir-birinə bağlı olan türk dövlətlərinin daha da möhkəmlənmələri, dünyada cərəyan edən proseslərə təsir göstərə bilmələri, öz milli maraqlarını müdafiə etmələri baxımından təşkilatlanmaları olduqca vacibdir.

Azərbaycan türk cümhuriyyətləri ilə əlaqələrində məhz bu mövqedən çıxış edir və daim bu prinsiplərə sadiq qalır. Xarici siyasət konsepsiyasında türkdilli dövlətlərlə əlaqələrin bütün sferalar üzrə inkişaf etdirilməsinin təşəbbüskarı olan Azərbaycan türkdilli dövlətlərin səylərinin birləşdirilməsini bu cür çağırışların vaxtında və effektiv cavablandırılması üçün önəmli vasitə hesab edir.

Səmərqənddə keçirilən IX Zirvə görüşündə İlham Əliyev bildirdi ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amallarına sadiq qalacaq. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən başlayaraq təşkilat böyük inkişaf yolu keçib.

Dövlətimizin başçısı vurğulayıb ki, türk dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil, onun coğrafi sərhədləri daha genişdir: "Hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı gəlib çatmışdır".

### İlham Əliyev türk dövlətlərinin başçılarını Qarabağa və Şərqi Zəngəzura dəvət etdi

Prezident həmçinin İkinci Qarabağ müharibəsindəki böyük Zəfərimizin ikinci ilinin təkcə ölkəmizdə deyil, qardaş ölkələrdə də qeyd edildiyini vurğuladı. Erməni vandalizminin ağır fəsadlarından söz açan dövlət başçısı son iki ildə Azərbaycanın yalnız öz qüdrəti hesabına Qarabağda və Şərqi Zəngəzurda reallaşdırdığı layihələr barədə ətraflı məlumat verdi.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri apardığını deyən Prezident keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Böyük qayıdış proqramının icrasına başlanıldığını və bu prosesdə Türkiyə şirkətlərinin podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak etdiyini diqqətə çatdırdı. Həmçinin bildirdi ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlara üç dəfə səfər edib, Şuşada, Füzulidə, Zəngilanda və Cəbrayılda olub.

İlham Əliyev digər türk dövlətlərinin başçılarını da Qarabağa və Şərqi Zəngəzura dəvət etdi və eləcə də işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən tikiləcək məktəbə və Qazaxıstan tərəfindən inşa olunacaq yaradıcılıq mərkəzinə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə minnətdarlığını bildirdi. Qeyd etdi ki, bunlar Azərbaycan-özbək və Azərbaycan-qazax xalqları arasında olan qardaşlığın təzahürüdür.

Qarabağ münaqişəsinin başa çatdığını bir daha söyləyən İlham Əliyev regionda yeni yaranmış reallaqların türk dövlətlərinin iqtisadiyyatına da böyük dividendlər gətirə biləcəyini vurğuladı. Bu xüsusda açılacaq Zəngəzur dəhlizinin əhəmiyyətini bir daha diqqətə çatdırdı. Prezident dedi ki, İkinci Qarabağ müharibəsinin nəticələri bölgə üçün yeni imkanlar açır. Azərbaycan Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir və dəhlizlə bağlı öz ərazisində genişmiqyaslı fəaliyyət həyata keçirir. Qeyd edildi ki, Zəngəzur dəhlizinin açılmasından bütün region ölkələri faydalanacaq.

Zirvə görüşünün sonunda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səsləndirdiyi fikirlər isə Azərbaycanın iqtisadi qüdrətini bir daha dünyaya nümayiş etdirmiş oldu: "Qarabağla əlaqədar çox ciddi mübarizə aparan və bu mübarizəni hazırda infrastrukturun qurulması ilə ən yüksək səviyyədə davam etdirən qardaşım İlham Əliyevin iki ildə bu sahədə nələr bacardığını, nələri ortaya qoyduğunu görürük. Dəfələrlə həmin ərazilərdə tədbirlərə qatılmaq, həyata keçirilən işləri yerində görmək imkanım oldu. Bu işləri yerində gördükdə bir türk olaraq iftixar hissi keçirdim. Çox qısa müddətdə bu qədər nailiyyət, həqiqətən, bizim üçün qürur mənbəyidir".

Bütün bunlar, əlbəttə ki, İlham Əliyevin türk dövlətlərinin birliyinin daha da güclənməsinə verdiyi töhfələrin və qardaş ölkələrin Azərbaycana münasibətlərinin bariz təcəssümüdür. Görünən odur ki, Türk Dövlətləri Təşkilatının üzvləri arasındakı əlaqələr getdikcə daha da güclənir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib



Noyabrın 11-də Bakıdakı "Gülüstan" sarayında Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət rəsmləri, Milli Məclisin deputatları, federasiyaların rəhbərləri, Olimpiya çempionları və titullu idmançılar iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Azərbaycan idmançılarının Olimpiya oyunlarında uğurlu çıxışları barədə videoçarx nümayiş etdirilib.

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyevin Milli Olimpiya Komitəsinə təbrik məktubunu oxuyub *(Məktub qəzetin bugünkü nömrəsində dərc olunur)*.

Avropa Olimpiya Komitələrinin və Yunanıstan Olimpiya Komitəsinin prezidenti Spiros Kapralos çıxışında Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını, Birinci Avropa Oyunlarının Bakıda yüksək səviyyədə təşkil olunduğunu deyib. Bildirib ki, Azərbaycanda idmana dövlət səviyyəsində göstərilən yüksək diqqət və qayğının nəticəsində ölkədə ən müasir idman infrastrukturu yaradılıb və azərbaycanlı atletlər beynəlxalq arenada layiqincə çıxış edirlər. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu idman siyasəti sayəsində mümkün olub.

Spiros Kapralos vurğulayıb ki, I Avropa Oyunları Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə mükəmməl təşkil edilib.

Müasir quruluşda hazırlanmış Olimpiya Himni təqdim olunduqdan sonra Avropa Olimpiya Komitələrinin prezidenti S.Kapralos rəhbərlik etdiyi qurumun xatirə hədiyyələrini MOK-un vitse-prezidenti Çingiz Hüseynzadəyə və baş katib Azər Əliyevə təqdim edib. MOK rəsmiləri də komitənin xüsusi hədiyyəsini S.Kapralosa veriblər.

Təntənəli yubiley mərasimi möhtəşəm konsert proqramı ilə davam edib.

# "Əbədi şəhər" tarixi-etnoqrafik kompleksi ilə tanışlıq








Noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşü çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan və Macarıstanın Baş nazirinin xanımı Aniko Levai "Əbədi şəhər" tarixi-etnoqrafik kompleksi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, "Əbədi şəhər" tarixi-etnoqrafik kompleksi ilə tanış olan Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevaya və digər ölkələrin birinci xanımlarına Türk Dövlətləri Təşkilatına üzv ölkələrin folklor qruplarının ifaları təqdim edilib.

Nadir "Əbədi şəhər" tarixi-etnoqrafik kompleksi "Böyük İpək Yolu" beynəlxalq turizm kompleksinin bir hissəsidir. Şərq memarlığının bütün səciyyəvi cəhətlərini əks etdirən bu kompleksdə məşhur sənətkarların, tətbiqi sənət ustalarının və müxtəlif xalqları təmsil edən rəssamların özbək milli mədəniyyətinin rəngarəngliyini, xalq adət-ənənələrini özündə birləşdirən qalereyaları və emalatxanaları yerləşir.

"Əbədi şəhər" Səmərqənd, Buxara, Fərqanə, Daşkənd, Xivə və digər qədim şəhərləri təcəssüm etdirən böyük kompleksdir. Ərazidə 44 nadir orijinal bina tikilib. Kompleks iki hissədən ibarətdir. Bu hissələrdən birində turizm şəhərciyi, digər hissədə isə konqres zalı, beşulduzlu və dördulduzlu dörd hoteldən ibarət kompleks yerləşir.

Kompleksin konsepsiyası Özbəkistanın mədəniyyətini və adət-ənənələrini bir məkanda təqdim etmək ideyasına əsaslanır. Ərazidə rəssamların və sənətkarların mağazaları, kitabxana, kukla teatrı, istirahət guşələri, kafe və restoranlar fəaliyyət göstərir.

"Əbədi şəhər" tarixi-etnoqrafik kompleksinə gələnlər xalçaların və ipək məhsullarının toxunma prosesi, sənətkarların ağac üzərində oyma işləri, həmçinin milli geyim qalereyası ilə tanış olmaq imkanı əldə edirlər.





# Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Səmərqənddə təşkil olunan naharda iştirak edib



Noyabrın 11-də Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşü çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan və Macarıstan Respublikasının Baş nazirinin xanımı Aniko Levai Səmərqənddə təşkil olunan naharda iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, nahar zamanı konsert proqramı təqdim olunub.

# Sıfır Tullantı üzrə Qlobal Öhdəliyə dair Bəyannamə imzalanıb

Noyabrın 11-də Səmərqənd şəhərində "Ümumi evimiz olan Dünya üçün Sıfır Tullantı üzrə Qlobal Öhdəliyə dair Bəyannamə" imzalanıb.



AZƏRTAC xəbər verir ki, Türkiyə Respublikasının təşəbbüsü ilə hazırlanan bəyannaməni Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Macarıstanın Baş nazirinin xanımı Aniko Levai imzalayıblar.

Bəyannamədə Paris Sazişindəki və Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyindəki hədəflərə nail olunması istiqamətində tükənən ehtiyatların səmərəli istifadəsinin təşviqi və təkrar istifadəsi, eləcə də tullantıların təkrar emal vasitəsilə azaldılması zərurəti qeyd edilir. Həmçinin tullantıların dayanıqlı idarə olunması ilə resursların səmərəliliyi və iqlim dəyişikliyi arasında güclü əlaqənin olduğu qəbul edilir. Bəyannamədə tullantıların dayanıqlı idarə olunması strategiyasının həyata keçirilməsinə sadiqlik ifadə olunur. Sənədə görə, dünyada sıfır tullantı yanaşmasının təbliğ olunacağı və qabaqcıl təcrübələrin paylaşılacağı vəd edilir. Bəyannamədə BMT-yə üzv dövlətlərə, vətəndaş cəmiyyətlərinə, özəl sektora və mediaya strategiya və yanaşmaları dairəvi iqtisadiyyata keçidin sürətləndirilməsinə, tullantıların iqlim dəyişikliyinə təsirinin azaldılmasına uyğunlaşdırmağa dair çağırış edilir.

Qeyd edək ki, bəyannaməni BMT-nin Baş katibi Antonio Quterreş də imzalayıb.

# "Zamanın ilğımları" sərgisində







Noyabrın 11-də Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşü çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan və Macarıstan Respublikasının Baş nazirinin xanımı Aniko Levai Səmərqənddə "Ekspo" Mərkəzində təşkil edilən "Zamanın ilğımları" sərgisi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, fərqli dizaynla hazırlanan sərgidə insan üçün zamanın əhəmiyyəti və əsas həyat ölçülərindən biri olduğu xüsusi tərtibatla verilib. Sərgidə yer alan sərhədsiz qumluqlar sanki keçmiş günlərin sirlərini özündə saxlayır. Sərgi salonunun tavanı elə bir formada tərtib edilib ki, səmaya baxarkən insan özünü sanki ulduzların əhatəsində - qalaktikanın dərinliklərində hiss edir. Sərgidə ziyarətçilərə hadisələrin düzgün və dolğun çatdırılması üçün obrazları insanlar canlandırırlar. Burada yaxın sivilizasiyaların fraqmentləri, ustaların və sənətkarların əl işləri təqdim edilir. Sərgi salonunu gəzərkən qaranlıqdan süzülən işıq tarixin bu ucsuz-bucaqsız azimutunda zamanın dayandığı yerdə həyat verən ilğım şəklində qarşıya çıxır. Bura sanki yaradıcılar, rəssamlar, sənətkarlar və şairlər şəhəridir.

Pavilyonda nümayiş etdirilən fərqli və qədim zinət əşyaları, xüsusi işləmələr, parçalar və digər əşyalar sərgi ilə tanış olanlarda böyük maraq yaradır.





# Milli Məclisin dörd komitəsinin birgə iclasında 2023-cü ilin dövlət büdcəsi layihəsi müzakirə edilib

**Noyabrın 11-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin birgə iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli iclası açaraq gündəlik barədə məlumat verib. Bildirib ki, gündəliyə bir məsələ - "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin birinci oxunuşda müzakirəsi daxil edilib.

Müzakirəyə təqdim olunan büdcə layihəsinin Azərbaycan dövlətinin və iqtisadiyyatının qüdrətinə, aparılan islahatlara əsaslandığını vurğulayan Əli Hüseynli hüquq-mühafizə orqanları və məhkəmə hakimiyyəti üçün ayrılan vəsaitlərin keçən ilə nisbətən artmasını müsbət hal kimi dəyərləndirib. O, bu artımların məhkəmə-hüquq sistemində aparılan islahatlarla paralel həyata keçirilməsinə diqqət çəkib və büdcə layihəsinin müəyyən məsələləri ilə bağlı fikirlərini bildirib.

Sonra maliyyə naziri Samir Şərifov "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi barədə ətraflı məlumat verib. O qeyd edib ki, 2023-cü ilin dövlət büdcəsi, həmçinin büdcə zərfinə daxil olan digər sənədlər qanunvericiliyin tələblərinə müvafiq olaraq Milli Məclisə təqdim olunub.

Maliyyə naziri bildirib ki, 2023-cü ilin büdcə layihəsi ortamüddətli dövrdə makroiqtisadi və fiskal sabitliyin təmin edilməsi, büdcənin neft gəlirlərindən asılılığının mərhələlərlə aradan qaldırılması, borc intizamının təmin olunması kimi qarşıya qoyulan hədəflərə adekvatdır və gələn ilin büdcəsində ölkənin müdafiə qabiliyyətinin artırılması, Qarabağ və Şərqi Zəngəzur rayonlarının bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyası, işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın gerçəkləşdirilməsi kimi strateji çağırışlar, həmçinin geosiyasi gərginliyin artması, qlobal iqtisadi tənəzzül kimi böhran meyilləri də nəzərə alınıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da möhkəmləndirilməsini, ordu quruculuğunun daim müasirləşdirilməsini ən ümdə və prioritet vəzifələr sırasına daxil edib. Buna müvafiq olaraq 33 milyard 300 milyon manat məbləğində nəzərdə tutulan büdcə xərclərinin 24,2 faizi və yaxud 8 milyard 63 milyon manatı müdafiə və hüquq-mühafizə xərclərinə yönəldiləcək ki, bu cari illə müqayisədə 496 milyon manat və yaxud 6,6 faiz çoxdur.

Bildirilib ki, müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanılması xərcləri üçün 2023-cü ilin dövlət büdcəsində 5 milyard 993 milyon vəsait nəzərdə tutulub. Bu da 2020-ci illə müqayisədə 606 milyon manat və yaxud 11,3 faiz çoxdur. Növbəti ildə məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanması xərcləri üçün 2 milyard 743 milyon manat və yaxud 2022-ci ilə nisbətən 261 milyon manat (10,5 faiz) çox vəsaitin ayrılması nəzərdə tutulub.

Qeyd edilib ki, sosialyönümlü xərclərə 2023-cü ildə 15 milyard 219 milyon manat vəsaitin yönəldilməsi nəzərdə tutulub. Cari illə müqayisədə bu, 1 milyard 289 milyon manat və yaxud 9,3 faiz çoxdur. Əhalinin sosial müdafiəsi və sosial təminat xərcləri isə 4 milyard 416 milyon manat məbləğində proqnozlaşdırılır.

Nazir növbəti ilin dövlət büdcəsində beynəlxalq münasibətlər, beynəlxalq təşkilatlara üzvlük haqqı və digər beynəlxalq tədbirlərin maliyyələşdirilməsi üçün 470 milyon manat vəsaitin nəzərdə tutulduğunu diqqətə çatdırıb. Bu da cari illə müqayisədə 87 milyon manat və yaxud 22,8 faiz çoxdur. Qeyd olunub ki, 2023-cü ildə keçirilməsi nəzərdə tutulan beynəlxalq tədbirlər üçün 207 milyon manat vəsait ayrılıb, eyni zamanda Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının saxlanılması üçün 130 milyon manat, həmçinin xarici ölkələrdə fəaliyyət göstərən mədəniyyət mərkəzlərinin saxlanılması üçün 7 milyon manat, ticarət nümayəndəliklərinin saxlanılması üçün 6 milyon manat, xaricdəki Azərbaycan diasporunun möhkəmləndirilməsi və digər bu qəbildən olan işlər üçün 13 milyon manat vəsait ayrılacaq. Eyni zamanda məhkəmə qərarlarının icrası və məhkəmə proseslərində aztəminatlı şəxslərə hüquqi yardımın göstərilməsi ilə bağlı xərclər üçün də 13 milyon manat vəsait ayrılıb.

İnsan hüquqları üzrə müvəkkilliyin saxlanması üçün xərclərin cari illə müqayisədə 7,6 faiz artırılaraq 6 milyon manata çatdırıldığını deyən maliyyə naziri çıxışının sonunda gələn ilin büdcəsinin gəlirlərinin formalaşması istiqamətlərinə də nəzər salaraq büdcə kəsirinin maliyyələşməsi mənbələrini diqqətə çatdırıb.

İclasda Hesablama Palatası sədrinin müavini Nəsir Sadıqov palatanın 2023-cü ilin dövlət büdcəsinin layihəsinə dair rəyini təqdim edib. Bildirib ki, büdcə zərfində əsas makroiqtisadi göstəricilər üzrə müxtəlif ssenarilər şərh edilib, iqtisadi artımın əsasən qeyri-neft sektoru hesabına təmin olunacağı proqnozlaşdırılıb. Qeyd edilib ki, büdcə layihəsi ilə birgə hazırlanan və təqdim olunan sənədlər, əks etdirilən əsas göstəricilər qanunvericiliklə müəyyən olunmuş əsas tələblərə uyğundur.

Bildirilib ki, hazırlanan və təqdim edilən sənədlərdə məlumatlılıq əvvəlki illərlə müqayisədə artırılıb, izahatlara daxil edilmiş məlumatların keyfiyyəti və həcmi də yüksəldilib. Hesablama Palatası bununla yanaşı, bəzi istiqamətlər üzrə təkmilləşmələrin davam etdirilməsinin zəruriliyini də diqqətə çatdırıb.

Sonra parlamentin İntizam komissiyasının sədri Eldar İbrahimov çıxış edib. Eldar İbrahimov 2023-cü ilin dövlət büdcəsinin bir çox xüsusiyyətləri ilə əvvəlki illərdən fərqlənməsinə diqqət çəkib. Bildirib ki, gələn ilin büdcəsinin həm gəlirləri, həm də xərcləri respublikamızın tarixində ilk dəfə olaraq 30 milyard manatı keçib. Komissiya sədri bunu Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi uzaqgörən daxili və xarici siyasətinin nəticəsi kimi xarakterizə edib.

Bildirilib ki, gələn ilin büdcəsinin digər diqqəti cəlb edən məqamlarından biri də odur ki, dövlət büdcəsində ümumi dövlət xərcləri azaldılır, sosial və iqtisadi sahələrin inkişafına isə əvvəlki ildən xeyli çox vəsait ayrılır. İqtisadi təsnifata aid sahələrə böyük büdcə vəsaitlərinin yönəldilməsini təqdir edən E.İbrahimov kənd təsərrüfatına 1 milyard 202 milyon manat vəsaitin ayrılmasını da məmnunluqla qeyd edib.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov bildirib ki, dövlət büdcəsi dövlətin əsas maliyyə sənədi olmaqla yanaşı, həm də iqtisadi, hərbi, təhsil, sosial təminat və digər sahələrin idarə olunmasını və inkişafını təmin edən strateji sənəddir.

2023-cü ilin dövlət büdcəsinin də inkişafyönümlü olmasından danışan Z.Əsgərov sənədin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının reinteqrasiyası və həmin ərazilərə Böyük qayıdışın təmin edilməsi, öz doğma yurdlarından didərgin düşmüş vətəndaşlarımızın dayanıqlı məskunlaşması üçün ilkin şərtlərin yaradılması vəzifələrinə adekvat cavab verdiyini bildirib. Qeyd edib ki, bu məqsədlər üçün, həmin ərazilərdə infrastrukturun, o cümlədən hərbi infrastrukturların tikintisi, müdafiə və hüquq-mühafizə orqanlarının xidmətlərinin təşkili məqsədilə ayrılan vəsaitlərin artırılması təqdirəlayiqdir. Komitə sədri vurğulayıb ki, müdafiə və təhlükəsizliyə ayrılan xərclər 5,3 milyard manat olmaqla dövlət büdcəsi xərclərinin 16,3 faizini təşkil edir ki, bu da ölkəmizin hərbi və müdafiə qabiliyyətinin gücləndirilməsi, milli təhlükəsizliyin təmini ilə bağlı qarşıda duran vəzifələrin tam icrasına imkan verəcək.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov növbəti ilin dövlət büdcəsində beynəlxalq münasibətlər, beynəlxalq təşkilatlara üzvlük haqqı və digər beynəlxalq tədbirlərin maliyyələşdirilməsi üçün cari illə müqayisədə 20 faiz civarında artımla 470 milyon vəsaitin nəzərdə tutulmasını yüksək qiymətləndirib.

Komitə sədri Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının, mədəniyyət mərkəzlərinin, ticarət nümayəndəliklərinin saxlanılması kimi istiqamətlərdə ayrılan xərcləri müsbət dəyərləndirib, ölkəmizin beynəlxalq fəaliyyətinin və Azərbaycan həqiqətlərinin dünyada müdafiəsinin təmini ilə bağlı fikirlərini bölüşüb.

Sonra Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc 2023-cü ilin dövlət büdcəsini dünyanın müasir çağırışları, qlobal kataklizmlər və taxıl böhranı kontekstində dəyərləndirərək onun bu çağırışlara adekvat cavab verməsindən danışıb.

Azərbaycan əhalisinin demoqrafik vəziyyətinə nəzər salan komitə sədri ümumi əhali sayında 65 yaşdan yuxarı insanların sayının artmasına diqqət çəkib. O, Bakıda məskunlaşmanın sıxlığını vurğulayaraq, paytaxt əhalisinin ərazinin cəmi 4 faizində təmərküzləşməsinin fəsadlarından danışıb və toxunduğu məsələlərlə bağlı təkliflərini səsləndirib.

Komitələrin birgə iclasında insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva insan hüquqlarının daha səmərəli təmini baxımından həlli zəruri hesab olunan məsələlərdən danışıb. O, respublikamızın bir sıra bölgələrində məktəblərdə qış mövsümünə keçidin havanın temperaturuna uyğun tətbiq edilməsi, özünüməşğulluq proqramının genişləndirilməsi, məktəblərdə psixoloq ştatlarının artırılması, insan sağlamlığının daha etibarlı qorunması, hərbi qulluqçulara (müddətli hərbi qulluqçular istisna olmaqla) ərzaq payı əvəzinə verilən aylıq pul kompensasiyasının məbləğinin artırılması ilə bağlı təkliflərini səsləndirib.

Qanun layihəsinin müzakirələrində Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini Qüdrət Həsənquliyev, İnsan hüquqları komitəsi sədrinin müavini Tahir Kərimli, deputatlardan Fəzail Ağamalı, Asim Mollazadə, Azay Quliyev, Naqif Həmzəyev, Jalə Əhmədova, Elşən Musayev, Vüqar İskəndərov, Elman Nəsirov, Elşad Mirbəşiroğlu, Aydın Mirzəzadə çıxış ediblər. Deputatlar 2023-cü ilin dövlət büdcəsi layihəsi ilə bağlı rəy və təkliflərini bildiriblər, suallarını səsləndiriblər.

Sonra maliyyə naziri Samir Şərifov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib, sualları cavablandırıb.

Müzakirələrin sonunda deputatlar "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsini birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

Komitələrin birgə iclasında Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva, deputatlar Nigar Arpadarai, Sabir Rüstəmxanlı, Arzu Nağıyev, Aqil Abbas, Rasim Musabəyov, Kamal Cəfərov, Kamran Bayramov, Ramil Həsən, Nəsib Məhəmməliyev, Azər Kərimli, Bəhruz Məhərrəmov, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli və digər rəsmi şəxslər iştirak ediblər.

# Büdcə zərfinə daxil olan qanun layihələrinə baxılıb

**Noyabrın 11-də Milli Məclisin Əmək və sosial siyasət, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev iclası açaraq qeyd edib ki, müzakirəyə 2023-cü ilin dövlət büdcəsi zərfinə daxil edilən 8 məsələ təqdim olunub.

O bildirib ki, Azərbaycan vətəndaşlarının rifahının yüksəldilməsi, xüsusilə aztəminatlı insanların sosial müdafiəsinin gücləndirilməsi ölkə Prezidenti İlham Əliyevin daxili siyasətinin prioritet istiqamətidir. 2023-cü il üzrə Dövlət Sosial Müdafiə Fondunun büdcəsi haqqında qanun layihəsi də məhz bu baxımdan tərtib edilib. Diqqətə çatdırılıb ki, fondun 2023-cü il üçün gəlirləri və xərcləri bərabər olmaqla 6,2 milyard manat proqnozlaşdırılır. Bu, cari ilin büdcəsinə nisbətən 657,7 milyon manat və ya 11,7 faiz çoxdur.

Qeyd edilib ki, əmək pensiyalarının orta aylıq məbləği 2020-ci ildə 302 manat, 2021-ci ildə 332 manat, 2022-ci ildə 371 manat təşkil edib, 2023-cü ildə isə 423 manat təşkil edəcəyi proqnozlaşdırılır. Beləliklə, son 4 ildə əmək pensiyalarının orta aylıq məbləği 120 manatdan çox artıb. Növbəti ildə yaşa görə, əlilliyə görə, ailə başçısını itirməyə görə pensiyalarda artım nəzərdə tutulub.

Sonra Musa Quliyev İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcəsindən danışıb. Qeyd edib ki, növbəti ildə fondun gəlirləri və xərcləri bərabər olmaqla 212,7 milyon manat nəzərdə tutulub. Bu isə cari ildəkindən 31,3 milyon manat, yaxud 17,3 faiz çoxdur.

Nəzərə çatdırılıb ki, gələn ildə İşsizlikdən Sığorta Fondunun xərcləri 13 istiqaməti əhatə edəcək. Xərclərin 41,1 faizi özünüməşğulluq tədbirlərinin, 21 faizi məşğulluq xidməti orqanının saxlanmasının, 16,5 faizi sosial sahədə xidmətlərin əməkhaqqının müştərək ödənilməsinin, 10 faizi peşə hazırlığı və əlavə təhsilin təşkili xərclərinin maliyyələşməsinə yönəldiləcək. Qeyd olunub ki, növbəti ildə də özünüməşğulluq layihəsi davam edəcək. Bu proqram çərçivəsində 2023-cü ildə 10, 600 nəfərin, daha 6000 nəfərin isə Dünya Bankının layihəsi ilə özünüməşğulluq təlimlərinə cəlb olunması nəzərdə tutulur. Bildirilib ki, İşsizlikdən Sığorta Fondunun büdcə layihəsi 2023-cü ildə sığorta olunanların itirilmiş əməkhaqlarının kompensasiya edilməsinə, özünüməşğulluq, peşə hazırlığı və peşəyönümlü tədbirlərin keçirilməsi, ictimai-sosial işlərin və bir sıra digər xidmətlərin maliyyələşməsi üçün optimal maliyyə əsasları yarada biləcək.

Komitə sədri gələn il həm yaşayış minimumunun, həm də ehtiyac meyarının nəzərə çarpacaq dərəcədə artacağını söyləyib. Bildirib ki, ilk dəfə olaraq ehtiyac meyarı yaşayış minimumuna bərabərləşəcək və hər ikisi 246 manat təşkil edəcək. Bu, sosial-iqtisadi sahədə aparılan islahatların uğurlu nəticəsi hesab olunur.

Musa Quliyev gündəlikdə olan növbəti 4 məsələnin işğaldan azad olunmuş ərazilərdə çalışan işçilərin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri ilə əlaqədar olduğunu deyib. Bildirib ki, təklif olunan dəyişikliklərə əsasən, bu kateqoriyadan olan şəxslərin məzuniyyət, pensiya, müavinət, əməkhaqqı və sosial sığorta təminatları daha yüksək səviyyədə həyata keçiriləcək.

Sonra əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev müzakirəyə təqdim olunan qanun layihələri barədə fikirlərini açıqlayıb. O, qısa müddət ərzində ölkəmizdə sosialyönümlü xərclərin 2 dəfə artdığını qeyd edib. Ötən dövr ərzində 3 böyük sosial islahat paketinin həyata keçirildiyini söyləyib.

Nazir diqqətə çatdırıb ki, Dövlət Sosial Müdafiə Fondunun növbəti il üçün büdcəsinin gəlirləri və xərcləri bərabər olmaqla 6 milyard 264 milyon manat məbləğində proqnozlaşdırılır. Gəlirlərin içərisində 4 milyard 784 milyon manat məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərdir. Bu, cari ildən 10 faiz və yaxud 422 milyon manat artıqdır. Həmin məbləğin 3 milyard manatı qeyri-büdcə təşkilatları üzrə daxilolmalardır ki, bu da cari ilə nisbətən 12,5 faiz çoxdur.

Bildirilib ki, DSMF-nin büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin həcmi 1 milyard 468 milyon manat məbləğində müəyyən edilib. Bu, ümumi gəlirlərin 23 faizini təşkil edir.

Qeyd edilib ki, xərclərin 97 faizi əhaliyə ödənişlərin payına düşəcək. Əmək pensiyalarının maliyyələşdirilməsi üçün 5 milyard 907 milyon manat və ya cari ildən 12 faiz, yəni 650 milyon manat çox vəsait ödənilməsi planlaşdırılır.

Sahil Babayev əhaliyə ödənişlərin, xüsusilə pensiya ödənişlərinin 650 milyon manat artımının pensiyaçılar üçün daha yaxşı sosial rifahın təmin edilməsi nöqteyi-nəzərindən önəmli olduğunu bildirib. Qeyd edib ki, gələn il Azərbaycanda orta göstərici ciddi şəkildə artacaq. Yaşa görə pensiyanın 450 manat ətrafında, ümumi pensiyanın isə 400 manatın üzərində olması planlaşdırılır.

Nazir Dövlət Sosial Müdafiə Fondunun həyata keçirdiyi islahatların, güclü qanunvericilik paketinin icrası və beynəlxalq təcrübənin tətbiqi nəticəsində mümkün olduğunu deyib.

Sonra Sahil Babayev İşsizlikdən Sığorta Fondunun 2023-cü il üçün büdcəsi barədə məlumat verib. Diqqətə çatdırıb ki, fondun gəlirləri və xərcləri 212,7 milyon manat proqnozlaşdırılıb. Sığorta haqları üzrə gəlirlər 159,6 milyon, cari ildən qalıq vəsait 53 milyon manat olaraq planlaşdırılır. O qeyd edib ki, fondun əsas fəaliyyət istiqamətini məşğulluq proqramlarının icrası, xüsusilə aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsi təşkil edir. Məşğulluq xidməti tərəfindən son 4 il ərzində 400 mindən çox şəxs işlə təmin edilib. Özünüməşğulluq proqramının icrasına 87 milyon manat vəsaitin yönəldilməsi planlaşdırılır və bu, 10 min 600 ailənin kiçik və mikro biznesinin qurulmasına sərf ediləcək. Ümumilikdə 17 min ailənin ölkə üzrə özünüməşğulluq proqramına cəlb edilməsi planlaşdırılır. Peşə hazırlığı istiqaməti üzrə isə 22 milyon manat vəsait ayrılıb.

Bildirilib ki, 2023-cü il üçün yaşayış minimumu ölkə üzrə 246 manat, əmək qabiliyyətli əhali üçün 261 manat, pensiyaçılar üçün 199 manat, uşaqlar üçün 220 manat məbləğində müəyyən edilir. Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2023-cü il üçün ehtiyac meyarının həddi 246 manat məbləğində müəyyənləşdirilir.

Sonra büdcə zərfinə daxil olan digər qanun layihələri ilə bağlı məlumat verilib.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı diqqətə çatdırılıb ki, sənədə əsasən, sığorta stajının müddətinin 3 il artırılaraq 2026-cı ilə qədər uzadılması nəzərdə tutulur.

"Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə əlaqədar qeyd edilib ki, təklif olunan dəyişiklik Azərbaycanın işğaldan azad edilmiş ərazilərində qeyri-dövlət, qeyri neft-qaz sektoru üzrə 10 il müddətində məcburi dövlət sosial sığorta haqqının subsidiyalaşdırılması mexanizmini, o cümlədən tətbiq ediləcək şərtləri müəyyən edir. Layihədə eyni zamanda fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxslər üçün güzəştli sosial sığorta haqqı müəyyən olunur və həmin fəaliyyət növü də dövlət sosial sığorta haqqının subsidiyalaşdırılmasına aid edilir.

"Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə dair diqqətə çatdırılıb ki, təklif edilən dəyişikliyə əsasən, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssisə Əmək Məcəlləsinin 21-1-ci maddəsi nəzərə alınmaqla, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində işləmək üçün azı bir il müddətinə bağlanılmış əmək müqaviləsi olduqda, ilkin maddi-məişət şəraitinin dəstəklənməsi üçün 2023-cü il yanvarın 1-dən 5 il müddətinə birdəfəlik müavinət müəyyən olunur.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə bildirilib ki, sənədə əsasən, Məcəlləyə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssis" anlayışı əlavə olunur. Həmin mütəxəssislərə məcəllə ilə güzəşt və imtiyazlar müəyyən edilir. Təklif olunan dəyişiklikdə mütəxəssislərin 2023-cü ildən 5 il müddətində əsas və əlavə məzuniyyət müddətindən asılı olmayaraq, əlavə 5 gün ödənişli məzuniyyət hüququ əldə etməsi qeyd olunur. Məcəllənin 159-cu maddəsinə 2023-cü il yanvarın 1-dən 5 il müddətində işğaldan azad edilmiş ərazilərdə işləyən mütəxəssislərin əməkhaqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımların tətbiq edilməsi əlavə olunur.

Sonra iclasda Hesablama Palatasının auditoru Vəfa Mütəllimova Palatanın Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il büdcəsi və İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcəsi layihələrinə dair rəyini diqqətə çatdırıb.

Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il büdcə layihəsi ilə bağlı bildirilib ki, rəydə fondun gəlirlərinin mənbələri, o cümlədən məcburi dövlət sosial sığorta haqlarının daxilolma vəziyyəti, sair gəlirlər və balanslaşdırılma məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait barədə müvafiq təhlillər aparılıb, pensiyaların, məcburi dövlət sosial sığorta haqları hesabına maliyyələşdirilən müavinətlərin ödənilməsi, sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası vasitəsilə maliyyələşdirilmə xərclərinə, habelə fondun və DOST Agentliyinin saxlanılma xərclərinə yönəldiləcək vəsait haqqında müvafiq araşdırmalar həyata keçirilib.

İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcə layihəsi ilə bağlı bildirilib ki, rəydə fondun gəlir və xərc istiqamətləri üzrə proqnozlaşdırılmış məbləğlərin əsaslılığı və nəzərdə tutulan sosial-iqtisadi inkişafın məqsədləri ilə uyğunluğu, qanun layihəsinin tərtibi və təqdim edilməsi ilə bağlı qanunvericilikdə müəyyən edilmiş tələblərə əməl edilməsi məsələləri qiymətləndirilib.

Sonra Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim olunan məsələlər barədə fikirlərini açıqlayıb. Bildirib ki, sosial sahədə son illər ərzində önəmli işlər görülüb, uğurlu nəticələr əldə edilib. Diqqətə çatdırıb ki, 2023-cü ilin dövlət büdcəsində sosial xərclərin 45,7 faizə çatması planlaşdırılır. Bu, cari illə müqayisədə 1 milyard 300 milyon manat əlavə xərcin ayrılması deməkdir. İlk dəfə olaraq dövlət büdcəsində sosial xərclərin məbləği 15 milyard manatdan çoxdur və bu istiqamətdə dövlətin atdığı addımların maliyyə təminatının yaradılması deməkdir. Qeyd edilib ki, son illər ərzində davamlı olaraq əməyin ödənişi üzrə bütövlükdə fondun xərclərinin artırılması müşahidə edilir. Növbəti ildə də əməyin ödənişi iqtisadi təsnifat üzrə 25 faizə qədər artacaq.

O bildirib ki, ölkənin 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında sosial siyasətlə bağlı konkret hədəflər qoyulub. Onlardan biri minimum əmək pensiyasının minimum əməkhaqqına olan nisbətinin 75-80 faiz ətrafında saxlanılmasıdır. Bütövlükdə dövlət öhdəliyi ilə bağlı 2023-cü ildə bu istiqamətdə əlavə 235 milyon manat vəsait ayrılıb.

Deputatlar Mahir Abbaszadə, Vahid Əhmədov, Məlahət İbrahimqızı, Əli Məsimli, Rauf Əliyev, Rüfət Quliyev, Jalə Əliyeva, Əziz Ələkbərli, İlham Məmmədov, Arzu Nağıyev, Elnur Allahverdiyev, Məşhur Məmmədov, Aqil Məmmədov, Ziyad Səmədzadə müzakirəyə çıxarılan məsələlər barədə fikirlərini, qeyd və təkliflərini bildiriblər.

İclasda iştirak edən İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov, Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov qanun layihələri ilə bağlı fikirlərini açıqlayıblar.

Sonra əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov deputatların suallarını cavablandırıblar.

Müzakirələrin sonunda gündəliyə daxil edilən "Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il büdcəsi haqqında", "İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2023-cü il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2023-cü il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihələri, habelə "Əmək pensiyaları haqqında", "Sosial sığorta haqqında", "Sosial müavinətlər haqqında" qanunlarda və Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası İcraiyyə Komitəsinin iclası keçirilib

**Noyabrın 11-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) İcraiyyə Komitəsinin iclası keçirilib.**

AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə Vətənimizin ərazi bütövlüyünün bərpa olunması uğrunda mübarizədə həyatını itirmiş oğul və qızlarımızın əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev iclasın gündəliyinə "2023-2025-ci illər üçün bağlanacaq Baş Kollektiv Sazişin layihəsi", "Bir qrup şəhid ailəsinin himayəyə götürülməsi", "2021-ci il və 2022-ci ilin 9 ayı ərzində işçilər üçün sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması və istehsalat xəsarətlərinin qarşısının alınması üzrə AHİK-in və üzv təşkilatların həyata keçirdikləri işlər" və digər cari məsələlərin daxil edildiyi barədə məlumat verib.

Məsələlərin müzakirəsi zamanı bildirilib ki, Əmək Məcəlləsinə müvafiq olaraq sosial-əmək münasibətlərinin tənzimlənməsinin əsas prinsipləri üzrə razılaşdırılmış sosial-iqtisadi siyasətin həyata keçirilməsi, əhalinin sosial müdafiəsi üçün lazımi şəraitin yaradılması, vətəndaşların əmək, iqtisadi, hüquqi mənafelərinin təmin edilməsi məqsədilə Nazirlər Kabineti, AHİK və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2023-2025-ci illər üçün Baş Kollektiv Sazişin layihəsi hazırlanıb. İclasda hökumətlə və işəgötürənlər birliyi ilə yekun danışıqların səmərəliliyini artırmaq üçün AHİK-in İcraiyyə Komitəsinin üzvlərinə müvafiq idarə və təşkilatlarla Baş Kollektiv Sazişin müddəaları ətrafında müzakirələrin aparılması tövsiyə olunub, həmçinin Baş Kollektiv Saziş layihəsinin Nazirlər Kabinetinə və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına təqdim edilməsi barədə qərar qəbul olunub.

İclasda qəbul edilmiş qərarla bu il sentyabrın 13-14-də Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində törədilən genişmiqyaslı təxribatın qarşısını alarkən həlak olmuş 18 şəhidin 32 övladı himayəyə götürülüb. Belə ki, bir uşağı olan ailəyə uşaq 18 yaşına çatanadək hər ay 100 manat, iki və daha çox uşağı olan ailəyə uşaqları 18 yaşına çatanadək hər ay 200 manat məbləğində vəsait ödəniləcək.

Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının "Şahmat-Dama" idman klubunun üzvü Gövhər Beydullayeva şahmat üzrə 20 yaşlı qadınlar arasında keçirilən dünya çempionatında bütün rəqiblərini üstələyərək Dünya Çempionu tituluna yiyələnib. Bu münasibətlə iclasda Gövhər Beydullayevaya və onun məşqçisi Xanlar Allahverdiyevə pul mükafatının verilməsi barədə qərar qəbul olunub.

"2021-ci il və 2022-ci ilin 9 ayı ərzində işçilər üçün sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması və istehsalat xəsarətlərinin qarşısının alınması üzrə AHİK-in və üzv təşkilatların həyata keçirdikləri işlər barədə" məsələnin müzakirəsi zamanı bildirilib ki, ötən 1 il 9 ay ərzində texnik əmək müfəttişləri tərəfindən aparılmış yoxlamalar zamanı müəyyən edilmiş 1441 pozuntudan (1290) 89,52 faizinin aradan qaldırılması təmin olunub. AHİK-in xidmətinə daxil olan müəssisə və təşkilatlarda istehsalatda baş vermiş bədbəxt hadisələr zamanı 172 nəfər xəsarət alıb, 32 nəfər isə ölüb. Həyata keçirilmiş tədbirlər nəticəsində əvvəlki ilə nisbətən 2022-ci ilin 9 ayı ərzində həmkarlar ittifaqlarının xidmətlərinə daxil olan müəssisələrdə istehsalat zədələnmələri 49,46 faiz azalıb.

İcraiyyə Komitəsi AHİK-in üzv təşkilatlarının xidmətlərində olan müəssisə və təşkilatlarda təhlükəsiz və sağlam iş şəraitinin yaradılması üçün mövcud nöqsanların aradan qaldırılması istiqamətində konkret tədbirlərin görülməsi barədə qərar qəbul edib.

İcraiyyə Komitəsi "Qızlar Məktəbi"nin 120 illik yubileyi və 11 Oktyabr - Beynəlxalq Qızlar Günü münasibətilə başlanan "Gənc qızların təhsilinə dəstək" kampaniyasına AHİK-in də qoşulması, həmçinin Elm və Təhsil Nazirliyinin tabeliyindəki Təhsilin İnkişaf Fonduna dəstək göstərilməsi məqsədilə 10 min manat pul vəsaiti köçürülməsi barədə qərar verib.

Bunlardan başqa, gündəlikdə olan digər məsələlər, o cümlədən cari və təşkilati məsələlərə dair müzakirələr aparılıb, müvafiq qərarlar qəbul edilib.

Sonda AHİK sədri əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası, sağlam və təhlükəsiz iş şəraitinin yaradılması, bədbəxt hadisələrin, istehsalat zədələrinin, peşə xəstəliklərinin minimuma endirilməsi, əməyin mühafizəsi üzrə qayda və normalara əməl olunması məqsədilə mütəmadi maarifləndirmə tədbirlərinin həyata keçirilməsini tövsiyə edib. S.Möhbalıyev, həmçinin deyib ki, həmkarlar ittifaqlarına ünvanlanan bütün müraciətlər dərindən araşdırılsın, qaldırılan bütün problemlər qanunvericiliyə uyğun olaraq, vaxtında həll edilsin, vətəndaş məmnunluğu tam təmin edilsin.

Şəhid ailələrinin və valideynlərinin, qazilərin, veteranların müraciətlərinə həssaslıqla yanaşmağı diqqətə çatdıran Konfederasiya sədri bunun hamımızın müqəddəs borcu olduğunu vurğulayıb.

YAP - 30

# Silsilə tədbirlər davam edir

**Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş tədbirlər planına uyğun olaraq silsilə tədbirlər davam edir.**



Tədbirlər planı çərçivəsində noyabrın 11-də partiyanın Şabran, Zəngilan, Nərimanov, Şamaxı rayon təşkilatları tərəfindən tədbirlər keçirilib.

Tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Keçirilən tədbirlərdə - Şabran rayonunda YAP Şabran Rayon Təşkilatının sədri Mehdi Balabəyov, YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, YAP İdarə Heyətinin üzvü Elnarə Akimova, Şabran Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov, partiyanın Zəngilan Rayon Təşkilatının tədbirində YAP Zəngilan Rayon Təşkilatının sədri Natiq Quluzadə, Zəngilan Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Həsənov, YAP İdarə Heyətinin üzvü Ramiz Hüseynov, YAP Veteranlar Şurasının üzvü Adilə Abasova, Milli Məclisin deputatı İmamverdi İsmayılov, Nərimanov rayonunda YAP Nərimanov Rayon Təşkilatının sədri Samir Vəliyev, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Elgin Həbibullayev, YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən Şahlar Əsgərov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Şamaxı rayonunda YAP Şamaxı Rayon Təşkilatının sədri Tural Qasımlı, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən Tahir Məmmədov və başqaları çıxış ediblər.

Çıxışlarda Yeni Azərbaycan Partiyasının 30 il ərzində keçdiyi zəngin və şərəfli inkişaf yoluna nəzər salınıb. Azərbaycan dövlətinin Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanaraq yeni zirvələr fəth etdiyi diqqətə çatdırılıb.

Tədbirlərdə YAP sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri və partiya fəallarına fəxri fərmanlar təqdim edilib.

## 12 Noyabr Konstitusiya Günüdür



# Dövlətimizin Qanun sütunu

Tarixi və məsuliyyətli günlər yaşayırıq. Gözümüzün qarşısında Azərbaycan Respublikası öz gücü və qüdrəti ilə sanki yenidən doğulur. Tarixin ən ağır dönəmlərində belə, istiqlalı və hürriyyəti uğrunda mübarizədən vaz keçməyən xalqımız layiq olduğu zirvəni fəth edir. Bir zamanlar işğal və faciələr tarixlərini qeyd edən bizlər indi qələbə və sevinc tarixlərimizin ildönümlərini bayram edirik. Noyabr ayının ardıcıl bayram tarixlərinin də təqvimdə sanki zərurətdən yaranmış qəribə təsadüfi düzülüşü var: 8 Noyabr Zəfər Günü, 9 Noyabr Dövlət Bayraq Günü, 10 noyabr - düşmənin kapitulyasiya sənədinə imza atdığı gün, 12 Noyabr Konstitusiya Günü.

Zəfər Gününün ikinci ildönümündə Ali Baş Komandanın Şuşada qəhrəman ordumuz qarşısında etdiyi çıxış, verdiyi mesajlar sözün həqiqi mənasında dövlətimizin güc təntənəsi idi. Vətən müharibəsinin qürurlu xronologiyası ilə bərabər, müharibədən sonrakı durum və gələcək hədəfləri özündə əks etdirən bu çıxışında dövlət başçısı Azərbaycanın haqq yolunun qarşısında duran bütün qüvvələrə qəti və sərt xəbərdarlıq etdi. Prezidentin Zəfər Günü hərbçilər qarşısında göstərdiyi qətiyyətli mövqe həm bir gün sonrakı Dövlət Bayraq Günündə üçrəngli milli simvolumuzun əbədi olaraq başımız üzərində qürurla dalğalanacağına, həm də suverenliyimizə qarşı olan bütün işğalçı qüvvələrin 10 noyabrda olduğu kimi, kaputilyasiyaya məhkum olacağına ümummilli inamın ifadəsi idi. Bu inam tək regionda deyil, həm də beynəlxalq müstəvidə öz gücü və nüfuzu ilə milli maraqlarını təmin etmək imkanında olan dövlətin qüdrətindən yaranır. O dövlətin ki, müstəqilliyini elan etdikdən sonra məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. O zaman ölkədə hökm sürən ictimai-siyasi qeyri-sabitlik, xaos və anarxiya, vətəndaş qarşıdurmasının yaranması müstəqilliyimizin və dövlətçiliyimizin formal xarakter almasına gətirib çıxarmışdı. Məhz belə bir çətin məqamda, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə xalqın təkidli tələbi ilə qayıdışı müstəqil Azərbaycan dövlətçiliyinin əsasını qoydu. Məhz onun xalqı müstəqil Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdirməsi və yüksək dövlət idarəçilik bacarığı sayəsində, ilk növbədə, dövlət idarəçiliyinin bütün sahələrinin mütərəqqi standartlara uyğunlaşdırılması, insan hüquq və azadlıqlarının qorunması ilə bağlı davamlı demokratik islahatların həyata keçirilməsinə başlandı. Ölkədə ictimai-siyasi sabitlik bərqərar olunandan sonra, həyata keçirilən məqsədyönlü siyasət nəticəsində qanunçuluq və hüquq qaydası bərpa edildi. Bütün bunlar isə Azərbaycan xalqının və dövlətinin tarixində ilk milli Konstitusiyanın qəbul edilməsi üçün lazımi ictimai-siyasi şəraitin yaradılması ilə nəticələndi. 1995-ci il noyabrın 12-də Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəd idi. Konstitusiyanın qəbulu dövlətçiliyimizin möhkəmləndirilməsi, Azərbaycanın dünya birliyində nüfuzunun daha da artması baxımından çox mühüm ictimai-siyasi hadisə kimi qiymətləndirilməlidir. Müasir dövrümüzdə Azərbaycan Respublikasının konstitusion dövlət kimi təşəkkül tapması, ölkədə ictimai-siyasi proseslərlə müşayiət olunan tarixi şərait bu müstəvidə fəaliyyət göstərən görkəmli siyasi liderlərin dinamik mübarizə xətti ilə bağlıdır. Konstitusiya mövcud dövlətin bütöv hüquq sisteminin özəyi kimi çıxış edən, ölkə vətəndaşlarının əksəriyyətinin maraq dairəsində olan ictimai həyatı və əsas dövlət qurumlarının fəaliyyətini tənzimləyən normativ-hüquqi aktdır.

Konstitusiyaların keyfiyyətləri onun yüksək hüquqi qüvvəyə malik olması və hüquq sisteminin fundamental mənbəyi kimi çıxış etməsidir. Əvvəla, konstitusiya normaları digər normalara münasibətdə prioritet mövqedən çıxış edir. İkincisi, qanunlar və digər qanun qüvvəli aktlar konstitusiyada müəyyən edilən qayda və prosedura uyğun qəbul edilməlidir. Konstitusiya dövlətin əsas qanunu olması etibarilə mövcud dövlətin və dövlətçilik ənənələrinin formalaşmasında ən ümumi ictimai münasibətlər kompleksini, ictimai quruluşun əsaslarını, şəxsiyyətin hüquqi statusunu, dövlət hakimiyyət orqanlarının sistemini, yerli özünüidarəetmə strukturlarını və hüquqi mexanizmləri tənzimləyən normativ-hüquqi akt və ya prinsiplərin modifikasiyasıdır.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratdı və onun inkişafına güclü təkan verdi. Bu baxımdan hazırda qürurla yaşadığımız tarixi zəfərlərimizin əsası həm də dövlətin təməl şərti olan Konstitusiyanın qəbuluna bağlıdır. Vətən müharibəsində tarixi qələbənin qazanılması və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması bu gün Konstitusiyamızın ölkəmizin bütün ərazisində tətbiqinə imkan yaradıb. Bu qələbə sayəsində 30 ilə yaxın müddətdən sonra beynəlxalq hüququn prinsip və tələbləri yerinə yetirilib və işğaldan azad edilmiş ərazilərdə Konstitusiyanın hüquqi qüvvəsi təmin olunub. Bu gün Azərbaycan Konstitusiyası arxasında dövlət gücü duran və bayrağımızla yüksələn And Yerimizə çevrilib.

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclis Sədrinin müavini***

# Tarixi zəfər dövlətimizin konstitusion əsaslarını tam təmin etdi

Dünyanın bütün ölkələrində Konstitusiya əsas qanun kimi ən yüksək ali hüquqi sənəddir. Bu sənəd məxsus olduğu dövlətin təməllərinin əsas prinsiplərini, o cümlədən ölkə vətəndaşlarının hüquq və vəzifələrini təsbit edir. Konstitusiya həm də öz məzmunu ilə dövlətin siyasi quruluşunun, cəmiyyətin sosial-iqtisadi və hüquqi əsaslarının aynasıdır.

Bu gün müstəqil Azərbaycanın Konstitusiyasının qəbulunun 27-ci ili tamam olur. 1995-ci il noyabrın 12-də keçirilən referendumda xalqımız özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq və suveren hüququndan istifadə edərək müstəqil respublikamızın Konstitusiyasının qəbuluna səs verdi.

Konstitusiyamızın qəbulu zamanı yuxarıda qeyd olunan məsələlərlə yanaşı, həm də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsiplər əsas götürülüb. Bu da təsadüfi deyil. Çünki Konstitusiyada xalqımız və dövlətimizlə bağlı yer alan təməl prinsipləri 1991-ci ildə qəbul edilmiş Konstitusiya Aktında təsbit edilib. Eyni zamanda bu sənədin 32-ci maddəsində göstərilir ki, Konstitusiya Aktı Azərbaycanın yeni Konstitusiyasının hazırlanması üçün əsasdır. Amma 1991-1993-cü illərdə hakimiyyətdə olan siyasi qruplar müstəqil respublikamızın yeni Konstitusiyasının hazırlanması barədə, ümumiyyətlə, düşünməmişdilər…

Müstəqil respublikamızın yeni Konstitusiyasının hazırlanması yalnız Ümummilli Lider Heydər Əliyevin xalqımızın istək və arzusu ilə ölkəmizə rəhbərliyə başlamasından sonra gündəmə gəldi. Bu məqsədlə Heydər Əliyevin rəhbərliyi ilə komissiya təşkil olunmuş və Konstitusiyanın mütərəqqi çağırışlara cavab verən mükəmməl layihəsi hazırlanmışdır. Əlbəttə ki, bu işdə Heydər Əliyevin görkəmli dövlət xadimi kimi siyasi təcrübəsi, müdrikliyi böyük rol oynamışdır. Bu mənada Heydər Əliyevin komissiyanın iclasında öz tövsiyələrini verərkən söylədiyi fikirlər Ulu Öndərin Azərbaycanın inkişafına verdiyi böyük önəmin təcəssümüdür. "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır", - deyə Ulu Öndər bildirmişdi.

Bu fikirlər həm də onu göstərir ki, Konstitusiyanın sivil və demokratik ruhlu dəyərləri, baxışları, yanaşmaları, insan hüquqlarını, vətəndaş olaraq vəzifələrimizi təsbit edən mükəmməl məzmunda qəbul edilməsi üçün xalqımızın Ümummilli Lideri onun hər bir bölməsinə, maddəsinə, hər bir bəndinə xüsusi diqqətlə yanaşmışdır. "1995-ci ildə referendum yolu ilə qəbul edilmiş Konstitusiya Azərbaycan xalqının inkişafı naminə müasir, demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu mərhələsinə keçidi təsbit etmişdir. Bu tarixi sənədin müəllifi xalqımızın Ümummilli Lideri Heydər Əliyev olmuşdur", - deyə Prezident İlham Əliyev bildirmişdir.

Konstitusiyamızın preambulasında dövlətimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətlər bəyan olunub. Konstitusiyanın qəbulundan ötən müddətin reallıqları göstərir ki, Ulu Öndər Heydər Əliyevlə başlanan, ötən 19 ildə isə cənab Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilən, dövrün tələblərindən irəli gələrək yeni keyfiyyət mərhələsinə yüksələn inkişaf siyasəti Konstitusiyamızın preambulasında yer alan niyyətlərin həyata vəsiqə almasını təmin edib.

Konstitusiyada Azəpbaycan vətəndaşlarının bütün hüquqları ən demokratik meyarlara uyğun təsbit olunub. Lakin torpaqlarımızı işğal edən Ermənistan yüz minlərlə vətəndaşımızın doğma yurdda təhlükəsiz yaşamaq, azadlıq, mülkiyyət, mənzil toxunulmazlığı və digər konstitusion hüquqlarını pozmuşdu. Onların bu hüquqlarını pozan isə Ermənistan idi. Şəhər və kəndlərimizin işğaldan azad edilməsindən sonra qarşılaşdığımız acınacaqlı mənzərələr, evlərin daşlarına qədər sökülməsi, təbii sərvətlərimizin talan edilməsi xalqımızın hüquqlarının pozulmasının ayrı-ayrı nümunələridir.

Konstitusiyada dövlətimizin əsasları və vətəndaşların bütün hüquqları təsbit olunub. Amma Ermənistanın torpaqlarımızı işğal etməsi nəticəsində dövlətimizin əsaslarından biri olan ərazilərimizin bütövlüyü tapdalanmış, vətəndaşlarımızın hüquqları kobud şəkildə pozulmuşdu. Lakin xalqımız ümidini itirmədi, hər zaman inandı ki, bütün bu hüquqlar bərpa olunacaq. Bu baxımdan 2020-ci ilin Vətən müharibəsində qazanılan tarixi zəfərlə Azərbaycan dövlətinin və xalqımızın konstitusion hüquqları da bərpa olundu. Konstitusiyamızın 11-ci maddəsinin birinci bəndində qeyd olunur ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Vətən müharibəsindəki qələbə ilə Ana Qanunumuzun bu müddəası təmin edildi. Ərazi bütövlüyümüzün təminatçısı kimi Prezident İlham Əliyev bu konstitusion normanı qətiyyətlə reallaşdırdı.

Ana Qanunun 11-ci maddəsinin növbəti bəndində isə belə bir ifadə yer alıb ki, Azərbaycanın daxili suları respublikamızın ərazisinin tərkib hissəsidir. Bu baxımdan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin noyabrın 8-də Şuşada Zəfər Günü münasibətilə təşkil olunan tədbirdə çıxışı zamanı söylədiyi **"Biz Bala Göyçə gölünün sahilindəyik"** fikri hər birimizi qürurlandırmaqla yanaşı, eyni zamanda respublikamızın ərazisi ilə bağlı dəyişilməz konstitusion normaların qətiyyətlə yerinə yetirilməsinin, layiqincə təmin olunmasının təntənəsidir.

Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərinin fonunda isə Azərbaycan dövləti öz vətəndaşlarının digər konstitusion hüquqlarını qətiyyətlə bərpa edir.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***

# Türk dövlətlərinin birliyinin möhkəmlənməsi istiqamətində növbəti addım

Bu günlər Prezident İlham Əliyevin Özbəkistan Respublikasına səfəri ən çox müzakirə olunan mövzulardan biridir. Qeyd edək ki, dövlətimizin başçısı Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə iştirak etmək üçün noyabrın 10-da Özbəkistana gedib.

Bir zamanlar çoxlarının ən böyük arzusu, xəyalı olan türk dövlətlərinin birliyi artıq reallığa çevrilir. Bunu Azərbaycan Prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın qardaş Özbəkistanda qarşılanma mərasimində də gördük.

Deyirlər ki, dost dar gündə tanınar. Azərbaycan da 2020-ci ildə 44 gün davam edən Vətən müharibəsində həm dostlarını, həm də düşmənlərini yenidən tanıdı. Ermənistanın otuz ilə yaxın davam edən işğalına son qoyaraq ərazilərini azad edən Azərbaycanın tarixi zəfərinə sevinənlər arasında qardaş özbək xalqı da var idi.

Səmərqənddə noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşündə o xoş, qürurverici tarixdən də söz açıldı. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev danışıqlara başlamazdan əvvəl dövlətimizin başçısını böyük qələbə - 8 noyabr günü münasibətilə təbrik etdi: "Sizin yaxın dostlarınız kimi biz də bu zəfəri bayram etmişik. Bu münasibətlə sizi bir daha təbrik edirəm. 12 Noyabr Konstitusiya Gününüzü təbrik edirəm. Sabah sizdə Milli Olimpiya Komitəsinin 30 illiyidir, bu münasibətlə də təbrik edirəm, - siz bu təşkilata rəhbərlik edirsiniz. Bunlar elə hadisələrdir ki, yaxşı dostlar onları heç vaxt unutmamalıdırlar".

Azərbaycanla Özbəkistan arasında münasibətlər strateji əhəmiyyət daşıyır. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ölkələrimiz arasında əlaqələrin sistemli olduğunu və ən başlıcası, konkret nəticələr verdiyini vurğuladı.

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın Vətən müharibəsində qələbəsi münasibətilə təbrikinə görə Özbəkistan Prezidentinə təşəkkürünü bildirdi. Qardaş özbək xalqının, şəxsən Özbəkistanın Prezidenti Şavkat Mirziyoyevin Azərbaycanın ədaləti bərpa etməsinə münasibətini məmnunluqla qeyd edən Prezident İlham Əliyev nəzərə çatdırdı ki, biz bu dəstəyi müharibə dövründə də, sonra da hiss edirik: "Əlbəttə, işğaldan azad edilmiş Füzuli şəhərində məktəb tikmək təşəbbüsünüzə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu, ərazilərin bərpası işinə ilk xarici töhfə olacaq və biz bunu çox yüksək qiymətləndiririk. İndicə sizinlə informasiya mübadiləsi etdiyimiz kimi, məktəbin tikintisi artıq başlanıb. Bu məktəb bizim xalqlarımızın qardaşlığının rəmzi olacaq".

Son vaxtlar iki dövlət arasında münasibətlərin daha da yaxınlaşdığını vurğulayan Azərbaycan Prezidenti dedi: "Fikrimcə, bu da bizim əcdadlarımızın iradəsidir və xalqlarımız arasında tarixi qardaşlıq əlaqələri məcrasında baş verir. Yeddi ay ərzində üçüncü dəfədir ki, Özbəkistana səfər edirəm. Hər dəfə şəxsən sizə və qardaş özbək xalqına böyük məhəbbətlə, böyük hörmətlə gəlirəm və burada olandan sonra sizin rəhbərliyinizlə Özbəkistanın qazandığı böyük nailiyyətlər haqqında danışıram. Daşkəndi, Xivəni, Səmərqəndi ziyarət etmək kifayətdir. Mən artıq Özbəkistanla kifayət qədər yaxşı tanışam və deməliyəm, birmənalı şəkildə qeyd etmək olar ki, Səmərqənd mühüm beynəlxalq siyasi mərkəzə çevrilib. Ona görə ki, burada dünya liderlərinin iştirakı ilə dünya səviyyəli müxtəlif beynəlxalq tədbirlər keçirilir. Bu münasibətlə də sizi təbrik edirəm".

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsi məsələləri barədə də fikir mübadiləsi aparıldı. Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində əldə olunmuş razılaşmaların icrası istiqamətində görülən işlərə toxunuldu, bu baxımdan hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu.

İki ölkə arasında uğurlu əməkdaşlıqlar bir sıra istiqamətdə davam edir. Söhbət zamanı maşınqayırma sahəsində əldə edilmiş razılaşmaların həyata keçirilməsində müsbət nəticələr vurğulandı. Həmçinin əczaçılıq, energetika, eləcə də ipəkçilik sahəsində nailiyyətlərin olduğu bildirildi. Qeyd olundu ki, iki ölkənin regionları arasında əməkdaşlığın təşviqi məqsədilə bu ilin sonunda regionlararası forum keçiriləcək. Tədbir çərçivəsində iki ölkənin bir sıra şəhərləri arasında qardaşlıq münasibətlərinin qurulması barədə anlaşmaların imzalanacağı müsbət hal kimi dəyərləndirildi. Vurğulandı ki, bu tədbirlər Azərbaycanla Özbəkistanın qardaşlıq münasibətlərinin inkişafına mühüm töhfə verəcək.

Dövlət başçıları iki ölkə arasında humanitar-mədəni sahədə əməkdaşlığın inkişafının əhəmiyyətini də qeyd etdilər, mədəniyyət qruplarının intensiv qastrol səfərlərinin təşkilinin vacibliyini diqqətə çatdırdılar.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşünün Səmərqənd şəhərində keçirilməsinin böyük tarixi və rəmzi məna daşıdığı deyildi. Xüsusən təşkilatın adının dəyişdirilməsindən sonra ilk Zirvə görüşünün bu tarixi şəhərdə keçirilməsinin önəmi vurğulandı.

Dövlətimizin başçısı İlham Əliyevin noyabrın 10-da Səmərqənddə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşündə də günün aktual məsələləri müzakirə edildi. Ölkələrimiz arasında müttəfiqlik münasibətlərinə əsaslanan dostluq və qardaşlıq əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, bölgədə vəziyyət və təhlükəsizlik məsələləri nəzərdən keçirildi, Soçi görüşünün nəticələri barədə fikir mübadiləsi aparıldı.

Səmərqənd səfərində Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Özbəkistanın birinci xanımı Ziroatxon Mirziyoyeva ilə görüşü də yaddaqalan oldu.

Noyabrın 10-da Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və digər ölkələrin birinci xanımları Səmərqənddə "Özbəkistanın rəngləri" adlı sərgi ilə tanış oldular.

Qeyd edək ki, sərgidə Nukusda yerləşən İ.Savitski adına Qaraqalpaqıstan Respublikası Dövlət İncəsənət Muzeyinin kolleksiyasından məşhur əsərlər nümayiş olunur. Sərgilənən əsərlər Özbəkistanın XX əsr təsviri sənətinin bütün istiqamətlərini əhatə edir.

Həmin gün Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan, Macarıstanın Baş nazirinin xanımı Aniko Levai Özbəkistanın ən böyük teatrlarından olan, görkəmli özbək şairi, yazıçısı və dramaturqu Həmid Alimcanın adını daşıyan Səmərqənd Musiqili Dram Teatrında "Lazgi" adlı baletə də tamaşa etdilər.

Diqqətə çatdıraq ki, 2019-cu ildən UNESCO-nun Hökumətlərarası Komitəsi "Lazgi - Xarəzm rəqsi"ni bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edib. Xarəzm torpağında yaranmış "Lazgi" rəqsi təbiətdəki səs və təzahürləri, sevgi və xoşbəxtlik hisslərinin hərəkətlərdə təcəssümüdür.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



# Yeni Azərbaycan Partiyası:

# Heydər Əliyevdən İlham Əliyevə

**Azərbaycanda 18 oktyabr 1991-ci il tarixdə dövlət müstəqlliyinin elan olunması ilə ölkəmizdə sovet hakimiyyəti illərindəki təkpartiyalılıq şəraitində fəaliyyətdən çoxpartiyalı sistemə keçidin əsası qoyulmuşdur. Bununla Azərbaycan Xalq Cümhuriyyəti dövründəki çoxpartiyalı demokratik dövlət quruluşu yenidən bərpa olunmuşdur. Müstəqil Azərbaycan Respublikasının seçdiyi bazar iqtisadiyyatına əsaslanan hüquqi-demokratik dövlət quruluşu ölkədə müxtəlif ictimai-siyasi baxışlara malik olan siyasi partiyaların təsis edilməsinə geniş meydan açmışdır.**

XX əsrin doxsanıncı illərinin əvvəllərində, dövlət müstəqilliyinin başlanğıc mərhələsində milli azadlıq hərəkatı dalğasında yaradılmış Azərbaycan Xalq Cəbhəsi Partiyası yeni quruluşla əlaqədar xalqa çox şeylər vəd etsə də, az keçməmiş təcrübəsiz və səriştəsiz adamların təmsil olunduğu üçün özünü doğrulda bilməmişdir. Həmin məsuliyyətli dövrdə Azərbaycan ziyalıları və yeni nəsil siaysi qüvvələr xalqımızın mütləq əksəriyyətinin fikirlərini ifadə edərək gənc müstəqil Azərbaycan dövlətini cəmiyyət həyatının, demək olar ki, bütün sahələrini əhatə etməkdə davam edən mürəkkəb və dərin böhrandan xilas etməyin yeganə çıxış yolunu dünyamiqyaslı görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə yeni bir siyasi partiyanın yaradılmasında görmüşlər. Buna görə də XX əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycanın tanınmış ziyalıları, el ağsaqqalları Naxçıvana gedərək Muxtar Respublika Ali Məclisinin Sədri vəzifəsində çalışan Heydər Əliyevlə görüşür və onun razılığını almaq üçün iş aparırdılar. Lakin Azərbaycan Respublikasında heç bir vəzifə tutmaq niyyətində olmadığı üçün Heydər Əliyev buna razılıq verməmişdir. Bununla belə, həm Azərbaycan ziyalılarının təkidli tələbləri və ən əsası isə Azərbaycan xalqının düşdüyü ağır vəziyyət, yeni qurulmuş respublikanın müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalması doğma xalqına və ölkəsinə ürəkdən bağlı olan, onun bu günü və gələcəyi üçün məsuliyyət daşıdığını yaxşı bilən Heydər Əliyev belə çətin və mürəkkəb şəraitdə üzərinə düşən tarixi missiyanı yerinə yetirmək üçün Yeni Azərbaycan Partiyasının yaradılmasında iştirak etmək üçün razılıq vermişdir.

Bütün bunlardan sonra 91 nəfərdən ibarət Azərbaycan ziyalıları 16 oktyabr 1992-ci il tarixdə "Səs" qəzetində "Azərbaycan Sizin sözünüzü gözləyir" adlı müraciət məktubu ilə çıxış edərək, hazırkı çətin və mürəkkəb siyasi-iqtisadi və mənəvi böhran mərhələsində müstəqil dövlətin və xalqın xilas edilməsi naminə "Yeni Azərbaycan" adlandırılacaq siyasi partiyanın yaradılmasını və Heydər Əliyevin həmin partiyaya rəhbərlik etməsini xahiş etmişlər. "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciətməktubunda yeni müstəqillik əldə etmiş gənc respublikanın itirilmə təhlükəsi və çıxış yolları aşağıdakı kimi öz əksini tapmışdır: "Bir sözlə, mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir. Cəmiyyət obyektiv qanunauyğunluqlardan daha çox subyektiv mülahizələrə əsasən idarə olunur. Ən dəhşətlisi isə odur ki, siyasi və iqtisadi sistemdə islahatlar aparılmır... Dünənə kimi küçə və meydanlarda demokratiyadan danışanlar demokratiyanın nə olduğunu dərk etmirlər... Rəhbərliyin siyasi naşılığından, idarəetmə səriştəsizliyindən, hakimiyyət hərisliyindən həm daxildən, həm də xaricdən müəyyən qüvvələr öz mənafeləri üçün istifadə edirlər. Əgər dünənə qədər Azərbaycanın sərvətləri bir istiqamətə daşınıb aparılırdısa, indi var-dövlətimiz bir neçə səmtə axıdılır. Respublikanın olan-qalan iqtisadi potensialı dağılır, təbii sərvətlərimiz talan olunur... Gələcəyə ümidsizlikdən yüzlərlə ziyalı, yüksəkixtisaslı kadrlar ölkəni tərk edirlər... Siyasi partiyaların arasında, sözün əsl mənasında, geniş xalq kütləsinin dərin inam və etimadını qazanmış, öz ətrafında müxtəlif zümrələrdən olan adamları birləşdirə biləcək beynəlxalq nüfuzlu və respublika həyatının bütün sahələrindən tam və geniş məlumatı olan güclü lider yoxdur."

Heç şübhəsiz, "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciətindəki "Sözün əsl mənasında, geniş xalq kütləsinin inam və etibarını qazanmış, öz ətrafında müxtəlif zümrələrdən olan adamları birləşdirə biləcək, beynəlxalq nüfuzlu və respublika həyatının bütün sahələrindən tam və geniş məlumatı olan güclü lider" sözləri bu mühüm siyasi və mənəvi dəyərlərin hamısını özündə yaksək səviyyədə birləşdirən görkəmli dövlət xadimi Heydər Əliyevin obrazını ümumiləşdirilmiş şəkildə ifadə edirdi. Bununla belə, müraciətdə yaradılmasına qərar verilən "Yeni Azərbaycan" adlı siyasi partiyaya rəhbərlik etmək üçün "yeganə mütləq lider" kimi açıq şəkildə yalnız görkəmli dövlət xadimi Heydər Əliyevin olduğu bəyan edilmişdir. Müraciəti imzalayanlar "Azərbaycanın bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə" əsaslanmışlar. Çünki hər kəs çox yaxşı bilirdi ki, Heydər Əliyev Azərbaycana birinci rəhbərliyi dövründə respublikaya rəhbərlik sahəsində əldə etdiyi nailiyyətlərə, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini, Siyasi Büronun üzvü olaraq beynəlxalq aləmdəki nüfuzuna və nəhayət, ən çətin şəraitdə blokada vəziyyətinə salınmış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi Azərbaycanın bu ayrılmaz parçasını erməni təcavüzündən xilas etdiyinə görə xalqımızın sarsılmaz inamını qazanmışdır. Ona görə də müraciəti imzalayan tanınmış ziyalılar böyük inamla bu fikirdə idilər ki, "indiki vəziyyətdə belə çətin, məsuliyyətli işi (siyasi partiya yaratmaq işini-İ.H) respublikada öz üzərinə götürməyə qadir olan yeganə şəxs yalnız Heydər Əliyev ola bilər." Müraciətin axırındakı çağırış yalnız bu sənədə imza atan adlı-sanlı ziyalıların deyil, əslində, geniş mənada Azərbaycan xalqının fikrini ifadə edirdi: "Biz həm öz, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir."

Görkəmli dövlət xadimi Heydər Əliyev 24 oktyabr 1992-ci il tarixdə imzaladığı və "Səs" qəzetində çap etdirdiyi "Yeni müstəqil Azərbaycan uğrunda" adlı cavab məktubu ilə Yeni Azərbaycan Partiyasının yaradılmasına müsbət münasibətini bildirmişdir. Beş bənddən ibarət olan bu konsepsiyada müstəqil Azərbaycan Respublikası üçün həmin tarixi dövrdə həll edilməsi zəruri olan aşağıdakı vacib ictimai-siyasi və dövlətçilik məsələləri öz əksini tapmışdır:

1. Azərbaycanın müharibə vəziyyətindən çıxarılması və Qarabağ probleminin tezliklə həll olunması;

2. Azərbaycanda mövcud sosial-iqtisadi böhranın aradan qaldırılması və iqtisadi inkişafa nail olunması;

3. Ölkədə məqsədyönlü kadr siyasətinin həyata keçirilməsi;

4. Qanunun aliliyi prinsipinin təmin edilməsi, demokratik azadlıqların təmin olunması;

5. Ölkənin parçalanmasının qarşısının alınması, respublikada yaşayan bütün xalqların iştirakı ilə vahid, bütöv Azərbaycanın qorunub saxlanması və inkişaf etdirilərək möhkəmləndirilməsi.

Yeni Azərbaycan Partiyasının təsis konfransının Bakı şəhərində keçirilməsinə razılıq verilməmişdir. Ona görə də qısa müddətdə zəruri hazırlıq işləri aparıldıqdan sonra 21 noyabr 1992-ci il tarixdə Naxçıvan şəhərindəki Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrının binasında görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. Təsis konfransında Bakı şəhərindən və Azərbaycanın müxtəlif regionlarından gəlmiş 500 nəfərdən çox nümayəndə iştirak etmişdir. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında yekdilliklə qərar qəbul etmişdir. Görkəmli dövlət xadimi və böyük siyasətçi Heydər Əliyev Yeni Azərbaycan Partiyasının Sədri vəzifəsinə seçilmişdir. Təsis konfransı Yeni Azərbaycan Partiyasının Proqramı və Nizamnaməsinin qəbul olunması, Siyasi Şuranın və İdarə Heyətinin tərkibinin təsdiq edilməsi, Yeni Azərbaycan Partiyası Sədrinin müavinlərinin seçilməsi haqqında mühüm qərarlar qəbul etmişdir.

Yeni Azərbaycan Partiyası 18 dekabr 1992-ci il tarixdə Ədliyyə Nazirliyi tərəfindən rəsmi şəkildə qeydiyyata alınmışdır. Bu, Yeni Azərbaycan Partiyasının qeydiyyatdan keçmiş rəsmi bir siyasi qurum kimi fəaliyyətə başlamasını təmin etmişdir. Bununla Azərbaycanda Heydər Əliyev kimi dünya miqyasında xüsusi nüfuza malik olan görkəmli dövlət xadiminin rəhbərlik etdiyi ən böyük siyasi gücün meydana çıxmasına imza atılmışdır.

Müstəqil Azərbaycan dövlətinin və xalqımızın taleyində mühüm, həlledici rola və böyük əhəmiyyətə malik olan Yeni Azərbaycan Partiyası tarixə Heydər Əliyev Partiyası kimi daxil olmuşdur. Bunu şərtləndirən əsas faktorlar aşağıdakılardır:

1. Görkəmli dövlət xadimi, Ümummilli Liderimiz Heydər Əliyev Yeni Azərbaycan Partiyasının banisi və yaradıcısıdır.

2. Heydər Əliyev Yeni Azərbaycan Partiyasının Proqramı və Nizamnaməsinin əsas müəllifidir. Partiyamızın proqramı və nizamnaməsinin başlıca prinsipləri və əsas tezisləri, ana müddəaları Heydər Əliyev tərəfindən müəyyən olunmuşdur. Ekspertlərin rəylərinə görə, Yeni Azərbaycan Partiyasının Proqramı və Nizamnaməsi nəinki Azərbaycanda, hətta Müstəqil Dövlətlər Birliyi ölkələrindəki yeni siyasi partiyaların hamısının proqram sənədlərindən daha təkmil və üstündür.

3. Qüdrətli dövlət xadimi Heydər Əliyev 1992-ci ildən ömrünün sonunadək Yeni Azərbaycan Partiyasına böyük bacarıqla rəhbərlik etmişdir. Dövlət başçısının yüksək təşkilatçılıq qabiliyyəti, zəngin dövlətçilik təcrübəsi, qeyri-adi səfərbərlik bacarığı Yeni Azərbaycan Partiyasının böyük sürətlə inkişaf etdirilməsinə ciddi təkan vermişdir.

4. Azərbaycanın əsas ziyalı potensialı, aparıcı siyasi qüvvələri və yeni nəslin nümayəndələri məhz böyük sınaqlardan bacarıqla çıxmış, beynəlxalq miqyasda özünü görkəmli dövlət xadimi kimi təsdiq etmiş Heydər Əliyevə görə bu nəhəng siyasətçiyə böyük inam bəsləyərək Yeni Azərbaycan Partiyasının sıralarına qoşulmuşlar.

Heydər Əliyevin rəhbərliyi dövründə Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı 300 min nəfəri keçmişdir. Bu göstərici Azərbaycanda mövcud olan çoxsaylı siyasi partiyaların birlikdə hamısının üzvlərindən qat-qat çoxdur.

5. Məlum olduğu kimi, Yeni Azərbaycan Partiyasının birinci və ikinci qurultayları görkəmli dövlət xadimi, mahir siyasətçi Heydər Əliyevin rəhbərliyi ilə keçirilmişdir. Heydər Əliyevin Yeni Azərbaycan Partiyasının qurultaylarındakı parlaq məruzələri və yekun sözü bu partiyanın inkişaf strategiyasının əsasını təşkil edir.

6. Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə vaxtilə 24 oktyabr 1992-ci ildə "Səs" qəzetində çap olunmuş "Yeni müstəqil Azərbaycan uğrunda" adlı "91-lər"ə cavab məktubunda ölkənin inkişafı üçün bəyan etdiyi müddəaların hamısını dönmədən və ən yüksək səviyyədə həyata keçirmişdi.

7. Görkəmli dövlət xadimi Heydər Əliyev ölkəmizə həm geniş mənada müstəqil Azərbaycan dövlətinin, Azərbaycan xalqının və həm də Yeni Azərbaycan Partiyasının gələcək inkişafı üçün Prezident İlham Əliyev kimi əsl lider bəxş etmişdir.

Bütün bunlara görə Yeni Azərbaycan Partiyası Heydər Əliyev partiyası kimi tanınmış və şöhrət qazanmışdır. Doğrudur, görkəmli dövlət xadimi Heydər Əliyev siyasi hakimiyyətə yalnız bir partiyanın dəstəyi ilə gəlməmişdir. O, geniş mənada xalqın bütün təbəqələri tərəfindən 1993-cü ildə ən ali dövlət vəzifəsinə - ölkə Prezidenti vəzifəsinə seçilmişdir. Bununla yanaşı, Azərbaycanda siyasi tarazlığın qorunub saxlanılmasında, bütövlükdə ictimai-siyasi proseslərin istiqamətləndirilməsində, prezident, parlament və bələdiyyə seçkilərində, müstəqil dövlətin ümummilli ideologiyasının formalaşdırılması və təbliğində Yeni Azərbaycan Partiyasının xüsusi rolu vardır. Heydər Əliyevin müəyyən etdiyi azərbaycançılıq ideologiyası Yeni Azərbaycan Partiyasının siyasətinin əsasını təşkil edir.

Yeni Azərbaycan Partiyası təsis edildiyi 21 noyabr 1992-ci il tarixdən yaradıcısı Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildiyi 3 oktyabr 1993-cü ilə qədər müxalifət partiyası olaraq fəaliyyət göstərmişdir. Müxalifətdə olduğu dövrdə yeni azərbaycançılar öz işlərini sivil və demokratik prinsiplər əsasında qurmuş, təmsil etdikləri partiyanın proqramı və nizamnaməsinin müddəalarına və çağırışlarına məsuliyyətlə əməl etmişlər. Yeni Azərbaycan Partiyasının fəalları cəmiyyət hadisələrini kortəbii çağırışlara, kütlə psixologiyasına istinad etmək və qarşıdurma yaratmaqla deyil, mövcud prosesləri ölkə reallıqları və dünya təcrübəsi vasitəsi ilə qiymətləndirib, addım atmağa üstünlük verdiklərini nümayiş etdirmişlər. Beləliklə, Yeni Azərbaycan Partiyası ölkəmizdə əsl siyasi müxalifət partiyası kimi fəaliyyət göstərmək mədəniyyəti nümayiş etdirmişdir.

Azərbaycan Respublikasının Milli Məclisinə 12 noyabr 1995-ci il tarixdə keçirilən seçkilərdə Yeni Azərbaycançıların mütləq üstünlük qazanmaları Heydər Əliyev siyasi kursunun həyatiliyini, müstəqil Azərbaycan dövlətinin maraqlarına layiqincə cavab verdiyini bir daha təsdiqləmişdir. Bələdiyyə seçkilərində də xalq tərəfindən Yeni Azərbaycan Partiyasının üzvlərinə daha çox etimad göstərilməsi bu partiyanın artıq çətin sınaqlardan uğurla çıxdığını, ümumxalq etimadı qazandığını göstərir.

Müstəqil dövlətçilik üçün ən zəruri faktorlardan biri olan Azərbaycan Respublikasının Konstitusiyasının hazırlanması və 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilməsi ölkə Prezidenti Heydər Əliyevin və onun başçılıq etdiyi Yeni Azərbaycan Partiyasının nüfuzunu və cəmiyyətdəki rolunu daha da qüvvətləndirmişdir. Azərbaycan Respublikasının Konstitusiyasının ana müddəaları, əsas prinsipləri ölkə rəhbəri Heydər Əliyev tərəfindən müəyyən olunmuşdur. Heydər Əliyev Konstitusiya yaradılması prosesinə rəhbərlik etmişdir. Bütün bunlara görə Azərbaycan Respublikasının Konstitusiyası həm də "Heydər Əliyev Konstitusiyası" adlandırılmaqdadır. Konstitusiyanın hazırlanması və müzakirəsi prosesində yaxından iştirak etmiş yeni azərbaycançılar bu dövlət qanunvericilik külliyatının təbliği işlərində fəallıq göstərmişlər.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ölkə rəhbəri olaraq respublikanı düçar edilmiş dərin hərbi-siyasi və iqtisadi-mənəvi böhrandan xilas etməklə bərabər, ardıcıl olaraq həmişə partiya quruculuğu məsələləri ilə də məşğul olmuşdur. Bu baxımdan 19 noyabr 1994-cü il Yeni Azərbaycan Partiyasının yaradılmasının ikiilliyi ilə əlaqədar olaraq ilk dəfə partiya fəallarının ümumrespublika müşavirəsinin keçirilməsi və həmin müşavirədə ölkə Prezidenti Heydər Əliyevin proqram xarakterli geniş nitqi, aparılmış işgüzar müzakirələr iqtidar partiyasının yeni tarixi şəraitdəki vəzifələrinin müəyyən edilməsində mühüm rol oynamışdır. Az sonra Yeni Azərbaycan Partiyasında Qadınlar Şurasının və Gənclər Birliyinin təsis edilməsi, Heydər Əliyev tərəfindən bu qurumların fəaliyyət istiqamətlərinin müəyyən olunması iqtidar partiyasının cəmiyyətin ən aparıcı və mütəşəkkil siyasi qurumu kimi fəaliyyətini genişləndirdiyini və müasirləşdirdiyini nümayiş etdirmişdir. Heç şübhə yoxdur ki, 12 noyabr 1995-ci il parlament seçkilərində Yeni Azərbaycan Partiyasının qələbə qazanması artıq Heydər Əliyevin rəhbərlik etdiyi bu siyasi qurumun cəmiyyətin inkişafında xüsusi rola malik olmasının özünütəsdiqi demək idi. Dünyaşöhrətli dövlət xadimi Heydər Əliyevin 11 noyabr 1998-ci il tarixdə ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsi, əslində, bu dahi siyasətçinin qələbəsi olsa da, həm də onun rəhbərlik etdiyi partiyanın da böyük uğuru idi. 21 noyabr 1998-ci il tarixdə keçirilmiş Yeni Azərbaycan Partiyasının 6 illiyinə həsr olunmuş təntənəli yığıncaqda Heydər Əliyevin rəhbərliyi ilə hesabat xarakterli məsələlərlə yanaşı, gələcək vəzifələrə də gur işıq salınması bu mütəşəkkil siyasi qurumun sabahına daha böyük inamla baxmağa imkan yaratmışdır. Xüsusən 21-22 dekabr 1999-cu il tarixdə keçirilmiş Yeni Azərbaycan Partiyasının I Qurultayında yeni tarixi dövrün mühüm vəzifələrinin müəyyən edilməsi ilə yeni azərbaycançılıq siyasi-ideoloji hərəkata çevrilmişdir. Partiyanın I Qurultayında ölkəmizin yeni nəsil siyasətçilərinin önündə gedən Milli Məclisin deputatı İlham Əliyevin Yeni Azərbaycan Partiyası Sədrinin müavini seçilməsi partiyada yeniləşmələrə və gənclərin axınına böyük təkan vermişdir. Bundan sonra 21 dekabr 2001-ci ildə keçirilmiş Yeni Azərbaycan Partiyasının II Qurultayında İlham Əliyevin partiya Sədrinin birinci müavini seçilməsi ölkənin siyasi həyatında və partiya quruculuğunda xüsusi canlanmaya, novatorluğa və inkişafa səbəb olmuşdur.

Yeni Azərbaycan Partiyasının çoxcəhətli və səmərəli fəaliyyəti, beynəlxalq nüfuza malik siyasi təşkilat kimi böyük uğurla öz yolunu davam etdirməsi, daim yeniləşməsi və inkişafı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yorulmaz fəaliyyəti ilə üzvi surətdə əlaqədardır. Doğrudur, İlham Əliyev Yeni Azərbaycan Partiyası sıralarına gələnədək özünəməxsus ciddi siyasi mübarizə yolu keçmiş, diqqətəlayiq səviyyədə yetkin və mükəmməl təcrübə qazanmışdı. Heydər Əliyevin çətin, keşməkeşli, dərin mənalı həyatı və mübarizəsi görkəmli dövlət xadimi, qətiyyətli və müdrik bir siyasətçi kimi İlham Əliyev üçün böyük məktəb olmuşdur. Azərbaycana rəhbərliyinin birinci dövründə və Moskvada siyasət olimpinin zirvəsində təmsil olunduğu zaman Heydər Əliyevin yaşadığı məsuliyyətli, keşməkeşli və mənalı həyatın, apardığı dönməz mübarizənin görünən və görünməyən tərəflərinin dərsləri İlham Əliyevin gələcək böyük siyasət naminə atdığı taleyüklü addımlarda qiymətli təcrübə kimi mühüm əhəmiyyət kəsb etmişdir. Heç şübhə yoxdur ki, İlham Əliyevin Moskva Beynəlxalq Münasibətlər İnstitutu kimi nüfuzlu bir ali məktəbdə mükəmməl ali təhsil alması, tarixçi-diplomat ixtisasına və xarici dillərə dərindən yiyələnməsi də onun siyasi dünyagörüşünün formalaşmasında əhəmiyyətli rol oynamışdır. Ona görə də İlham Əliyevin Yeni Azərbaycan Partiyası sıralarına qoşulması, hər şeydən əvvəl, bu partiyanın aydın mövqeyə malik kamil bir siyasətçi ilə daha da möhkəmlənməsinə xidmət etmişdir. İlham Əliyev Yeni Azərbaycan Partiyasına ölkəmizin yeni nəsil siyasi gəncliyinin lideri kimi daxil olmuşdur. Bununla həm də Yeni Azərbaycan Partiyası Sədrinin müavini, birinci müavini kimi keçdiyi mənalı yol da onun siyasi təcrübəsinin daha da zənginləşməsinə, fəaliyyət dairəsinin üfüqlərinin genişlənməsinə geniş meydan açmışdır. Nəhayət, 15 oktyabr 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyevin Yeni Azərbaycan Partiyasının 26 mart 2005-ci il tarixdə keçirilmiş III Qurultayında iqtidar partiyasının Sədri seçilməsi ilə həm ölkəmizin həyatında, həm də partiyanın inkişafında yeni bir tarixi dövr başlamışdır.

Hazırda ölkəmizin Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının Sədri kimi özünəməxsus şərəfli inkişaf yoluna və ənənələrə malik olan bu partiyanın daha da inkişaf etdirilməsinə, fəaliyyətinin təkmilləşdirilməsinə, beynəlxalq əlaqələrinin genişləndirilməsinə və müasirləşdirilməsinə ciddi əhəmiyyət verir. İndiki mərhələdə Yeni Azərbaycan Partiyası Azərbaycan ictimai-siyasi mühitinin ən mütəşəkkil, aparıcı qüvvəsi kimi çıxış edir. Buna görədir ki, Yeni Azərbaycan Partiyası daim yeniləşən Azərbaycanın böyük ənənələrə malik olan yeni tipli, yetkin və dialektik inkişafda olan siyasi partiyası kimi nüfuzunu və şöhrətini nəinki qoruyub saxlayır, getdikcə daha da artırır, genişləndirir və möhkəmləndirir. Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasında aparılan geniş islahatlar ölkəmizdə partiya quruculuğu sahəsində əldə edilmiş mühüm nailiyyətdir. Bu gün nəinki Azərbaycanda, hətta dünya miqyasında beynəlxalq əlaqələr baxımından Yeni Azərbaycan Partiyası ilə müqayisə edilə biləcək ikinci bir partiya göstərmək çətindir. Müstəqil Azərbaycan Respublikasında bütün sahələr üzrə qazanılmış nailiyyətlərdə Yeni Azərbaycan Partiyasının özünəməxsus böyük payı, rolu və xidmətləri vardır. Vaxtilə XX əsrin doxsanıncı illərinin əvvəllərində ölkəmizdə müxalifət partiyası olmağın nümunəsini göstərən Yeni Azərbaycan Partiyası bu gün İlham Əliyevin liderliyi ilə Azərbaycan cəmiyyətində iqtidar partiyası kimi nümunəvi fəaliyyət göstərməyin məsuliyyətini və şərəfini uca tutmağın canlı və parlaq örnəyinə çevrilmişdir. Yeni Azərbaycan Partiyasında ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın partiya sədrinin birinci müavini kimi çoxcəhətli səmərəli fəaliyyəti geniş mənada respublikamızda bütün sahələr üzrə müasir inkişafın, o cümlədən partiyamızın siyasi fəaliyyətinin daha da genişləndirilməsinə və gücləndirilməsinə uğurla xidmət edir və böyük töhfələr verir.

Göründüyü kimi, Azərbaycan Respublikasının siyasi-ideoloji həyatında xüsusi əhəmiyyətə malik olan Yeni Azərbaycan Partiyasının keçdiyi çətin və məsuliyyətli yol ölkəmizdə tənəzzüldən böyük tərəqqiyə, böhrandan hərtərəfli müasir inkişafa və müasirləşməyə doğru gedişatın real mənzərəsini bütün gerçəklikləri ilə dolğun şəkildə əks etdirir. Əslində, Yeni Azərbaycan Partiyasının keçdiyi 30 illik çətin və şərəfli yol müstəqil Azərbaycan dövlətinin və xalqımızın müstəqil dövlətçilik ideallarına, Prezident İlham Əliyevin məqsədyönlü rəhbərliyi ilə ölkəmizin daha böyük sabahlarına dərin inam yoludur. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin "dəmir yumruğ"u ilə II Qarabağ-Vətən müharibəsində qazanılmış tarixi Zəfər qüdrətli lider faktorunun xalqın və dövlətin həyatında misilsiz rol oynadığını əyani surətdə sübut etmişdir. Müstəqil Azərbaycan dövlətinin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün istiqamətlər üzrə böyük sürətlə inkişaf edən respublikamızda Yeni Azərbaycan Partiyasının ideoloji əsasını təşkil edən azərbaycançılıq ideyasının daha da genişləndirilməsi, dünya azərbaycanlıları ilə əlaqələrin gücləndirilməsi, ölkədə siyasi mədəniyyətin və vətəndaş həmrəyliyinin möhkəmləndirilməsi, böyük quruculuq proseslərinə geniş meydan açılması, xalqımızın gələcək xoşbəxt həyatına gur işıq salır.

Müstəqil Azərbaycan Respublikası bu gün özünün yüksək inkişaf və əsl intibah yolunu böyük uğurla davam etdirir.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti,***
***Milli Məclisin deputatı, akademik***

# Qalib Komandanın Zəfər manifesti



"...Şuşa Azərbaycan xalqının ürəyidir, canıdır, hər bir azərbaycanlı üçün müqəddəs yerdir".
Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu il 8 Noyabr Zəfər Günündə Qarabağın ürəyi Şuşadan bəyan etdiyi kimi, hər bir azərbaycanlı üçün dünya bir yanadır, Şuşa bir yana.
Elə iki il əvvəlin payızında igidlərimizin Vətən uğrunda çıxdığı Zəfər yürüşünün son ünvanının Şuşa olması da bu qürur qalamızın ürəklərimizdəki özünəməxsus yerinin təcəssümü idi.

Hələ 44 günlük müharibənin gedişatında Ali Baş Komandan xalqımıza, "Şuşasız bizim işimiz yarımçıq olar" milli parolunu bəyan edərək, bütün savaş yollarının Şuşaya apardığının nişanəsini vermişdi. İgid döyüşçülərimizin Şuşaya doğru canları, qanları ilə uca dağların beli, dərin dərələrin içi, aşılmaz sıldırımların üzü ilə açdıqları qəhrəmanlıq cığırının tezliklə Zəfər yoluna çevriləcəyinin müjdəsini çatdırmışdı.

Çox keçmədən, Qalib Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də çıxdığı Zəfər yürüşünü noyabrın 8-də Şuşanın azadlığı ilə məntiqi sonluğuna çatdıraraq millətimizə qürur, şan-şöhrət, fəxarət bəxş etmişdi.

Beləcə, düz bir qərinədən sonra Şuşanın başını bürümüş çən-çiskini, dumanı avazımış, Vətən qibləmizin üzərinə əbədi Günəş doğmuşdu...

## Şuşa hər birimizi özünə çəkir

Sözügedən tarixdə Şuşaya səfər edərək müqəddəs şəhərimizin azadlığını, Zəfər Gününü təntənə ilə qeyd edən Ali Baş Komandan İlham Əliyev qəhrəman hərbçilərimizin qarşısındakı çıxışı zamanı səsləndirdi ki, son iki il ərzində Şuşada on dəfədən çox olub: "Hər dəfə Zəfər yolu ilə Şuşaya yaxınlaşarkən mən və əminəm ki, hər bir insan bir daha hərbçilərimizin qəhrəmanlığını, fədakarlığını, peşəkarlığını görür".

Bəli, qalib sərkərdəmizin də söylədiyi kimi, artıq şuşalı bəxtəvərlər olmamızın üzərindən düz iki il ötür və yaşından, cinsindən, hansı bölgədən olmasından asılı olmayaraq, hər birimiz bu müqəddəs şəhərə getmək, onu ziyarət etmək, şəhidlərimizin ruhuna Şuşadakı məscidlərdə dua etmək istəyirik. Dəfələrlə Zəfər yolu ilə Şuşaya getsək də, Cıdır düzündən bütün Qarabağı seyr etsək də, sözün əsl mənasında, Şuşadan doya, onun əsrarəngiz cazibəsindən çıxa bilmirik, elə hey bu sıldırımlar üzərində bina olunmuş uca şəhərə can atırıq. Hər zaman özümüzü Şuşa zirvəsində görmək, varlığımızı bu pak ucalıqda hiss etmək, ruhumuza şadlıq bəxş etmək istəyirik.

Qalib Komandanın hər birimizin arzularının ümumi ifadəsi olan bu fikrində olduğu kimi: "Şuşa hər birimizi özünə çəkir".

## Yollar Şuşaya aparır

Hələ 2020-ci il noyabrın 16-da, Zəfər günündən 8, Ermənistanın kapitulyasiya aktını imzalamasından cəmi 6 gün keçəndən sonra, Müzəffər Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur torpaqlarına ilk qalibiyyət səfərini gerçəkləşdirmiş, igidlər yurdu Füzulinin qonağı olmuş, Azərbaycan xalqını mələk şəhərimiz Cəbrayıldan salamlamışdı. Sözügedən tarixdə dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olmuş, tariximizin min illik yadigarı Xudafərin körpüsünə baş çəkmişdilər.

Həmin gün İlham Əliyev daha bir tarixi qərara imza atmış, azad yurdlarımızda ilk abadlıq işlərinin uğurlu başlanğıcını qoymuş, Qarabağın baş tacı olan Şuşa şəhərinə aparan Füzuli-Şuşa avtomobil yolunun çəkilişinə göstəriş vermişdi.

2021-ci il yanvarın 14-də isə Müzəffər Ali Baş Komandan, Zəfər yolu ilə azadlığından sonra Şuşaya ilk tarixi səfərini etmiş, bu səfəri zamanı illərdir didərgin həyatı yaşayan Natəvanın, Üzeyir bəyin, Bülbülün güllələnmiş büstlərini də öz doğma yerlərinə qovuşduraraq, tezliklə bütün azad edilən torpaqlarımıza doğma sakinlərinin Böyük qayıdışının reallaşdırılacağına rəmzi işarə vurmuşdu.

Şuşanın azadlığı ilə başa çatan Vətən müharibəsindən dərhal sonra Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda dünyada misli görünməmiş miqyasda və sürətdə quruculuq-bərpa işlərinə start verib. Bu ərazilərimizdə yeni yollar çəkilir, tunellər salınır, infrastruktur bərpa edilir. Artıq bu bölgələrimizdəki Zəngilan və Füzuli Beynəlxalq Hava limanları istifadəyə verilib, açılışı 2025-ci ildə planlaşdırılan Laçın Beynəlxalq Hava Limanının sürətli tikintisi aparılır. Qədim şəhərlərimizin yeni təməlləri qoyulur, "ağıllı kənd"lər salınır.

Bir sözlə, keçmiş məcburi köçkünlərin dədə-baba yurdlarına dönüşü üçün möhtəşəm hazırlıq görülür. Zəngilanın Ağalı kəndinin sakinlərinin yurdlarına qayıdışının timsalında isə zəfərdən sonra Böyük qayıdışın ilk uğurlu addımları da atılıb.

Göründüyü kimi, milli prioritetimiz olan Böyük qayıdışı tezliklə reallaşdırmaq üçün birbaşa dövlət başçısı İlham Əliyevin diqqəti və nəzarəti altında Qarabağda və Şərqi Zəngəzurda unikal işlər gerçəkləşdirilir.

Tarixi torpaqlarımızda həyata keçirilən bu meqalayihələri Prezident İlham Əliyevin həmin ərazilərə səfərləri zamanı bir daha əyani şəkildə görür, keçmiş məcburi köçkünlərin yurdlarına dönəcəkləri günün lap yaxında olduğunun şahidi oluruq.

## Torpaqlarımızın etibarlı keşiyində

Azərbaycan dövləti işğaldan azad edilən ərazilərində apardığı böyük quruculuq-bərpa işləri ilə yanaşı, torpaqlarının etibarlı müdafiəsi istiqamətində də mühüm işlər gerçəkləşdirir. Necə ki 44 günlük savaşda güclü ordu quruculuğu sayəsində düşmənin beli qırılıb, hazırda da bu istiqamətdə yeni işlər reallaşdırılır, işğaldan azad edilən bölgələrimizdə yeni hərbi hissələr istifadəyə verilir.

Bu il noyabrın 7-də Füzuliyə səfər edən Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin yeni istifadəyə verilmiş "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış oldu.

Şəxsi heyətin xidməti və məişət şəraitinin təmin edilməsi məqsədilə əsaslı təmir olunmuş hərbi şəhərcik ərazisində qərargah, yeməkxana, tibb məntəqəsi, əsgər yataqxanaları, hamam-camaşırxana, avtomobil parkı, müxtəlif təyinatlı anbarlar, eləcə də digər infrastruktur obyektləri mövcuddur. Burada döyüş hazırlığının və qoşun xidmətinin yüksək səviyyədə təşkili, əməliyyatlar zamanı bölmələrin operativ idarə olunması, eləcə də digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təmin edilməsi üçün müasir kommunikasiya və informasiya vasitələri ilə təchiz olunmuş idarəetmə mərkəzi, rabitə qovşağı və digər xidməti otaqlar var.

Şəhərcikdə hərbi qulluqçular və onların ailələri üçün yeni istifadəyə verilmiş iki və üçmərtəbəli yaşayış binaları, məktəb və uşaq bağçası mövcuddur. Hərbi qulluqçuların səmərəli istirahəti üçün müasir standartlara uyğun şərait yaradılıb.

Füzuli ərazisində hər bir şəraitlə təmin olunmuş yeni hərbi hissənin açılışı da onu göstərir ki, Vətən müharibəsinin üzərindən ötən müddətdə də dövlətimiz tərəfindən ordu quruculuğu istiqamətində davamlı işlər həyata keçirilir.

Şuşada Zəfər Günü münasibətilə təşkil olunan tədbirdə çıxış edən dövlət başçısı İlham Əliyev bildirdi ki, son iki il ərzində Silahlı Qüvvələrimiz daha da güclənib: "Həm struktur islahatları, həm yeni birləşmələrin yaradılması, eyni zamanda mövcud olan birləşmələrin sayının artırılması, silah-sursatla təchizat, yeni texnika ilə təchizat ən yüksək səviyyədədir. İndiki Azərbaycan Ordusu iki il bundan əvvəlki Azərbaycan Ordusundan daha güclüdür və bunu hər kəs bilməlidir, Ermənistan və hər kəs!"

## Düşməni yerində otuzdurmağa hər zaman hazırıq

Ümumiyyətlə, Zəfər Günü ərəfəsində Qarabağ bölgəsində yeni hərbi hissənin açılışını, o cümlədən Müzəffər Ali Baş Komandan İlham Əliyevin noyabrın 8-də Qarabağın incisi Şuşaya səfər edərək hərbçilər qarşısında elə hərbi paltarda çıxış etməsini, həm də revanşist hisslər burulğanında boğulan mənfur düşmənlərə xəbərdarlıq mesajı kimi də dəyərləndirə bilərik.

Qalib Komandan İlham Əliyev Şuşadakı sözügedən çıxışında xüsusilə vurğuladı ki, gələn il üçün hərbi xərclərə ayrılacaq vəsait rekord həddə çatıb: "Sual oluna bilər nə üçün, müharibə arxada qaldı, iki il keçib. Cavab çox sadədir. Ermənistanda revanşist qüvvələr baş qaldırır. Ermənistanda müharibənin nəticələri ilə barışmaq istəməyən qüvvələr, dairələr baş qaldırır. Ermənistan 2020-ci ilin 10 noyabr Bəyanatına tam əməl etmir, öz silahlı qüvvələrini Qarabağdan tam çıxarmayıb, Zəngəzur dəhlizini bizə təqdim etməyib, bizə qarşı vaxtaşırı hərbi təxribatlar törədir. Əlbəttə ki, biz hazırlıqlı olmalıyıq və biz hazırıq".

Dövlət başçısı İlham Əliyevin Zəfər Günündə qürur qalamız Şuşadan bir daha dünyaya bəyan etdiyi kimi, "Qarabağ Azərbaycandır!" və bu tarixi gerçəkliyi nə qorxaq düşmən, nə də ona havadarlıq edən məkrli qüvvələr dəyişə bilməz.

Və əgər mənfur düşmən belə bir ağılsızlığa cəhd etsə, Azərbaycanın "dəmir yumruğu"nu yeyərək yerində otuzdurulacaq. Necə ki 44 günlük Vətən müharibəsində belə oldu.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Əbədi qürur günü

O gün tarixə həkk oldu. 8 noyabr Azərbaycan xalqının əbədi qürur günü zəfər bayramına çevrildi. 44 gün davam edən İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu elə bir hünər, şücaət göstərdi ki, illər, əsrlər ötsə də, unudulmayacaq.

Bu qürurla, bu fəxrlə 2021-ci ilin sentyabrında Prezident, Ali Baş Komandan İlham Əliyev 27 Sentyabr Anım Günü ilə əlaqədar xalqa müraciətində dedi: "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi... Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".



## Bütün ədalətsizliklərə, haqsızlıqlara rəğmən var olan inam

Uzun illər Azərbaycan dövlətinin 1990-cı illərdə işğal olunmuş əraziləri ilə bağlı məsələni sülh yolu ilə həll etmək təklifindən imtina edən Ermənistan heç zaman öz mənfur niyyətindən əl çəkmədi. Vəziyyəti daim gərginləşdirməyə səy göstərdi, həm Azərbaycan Ordusunun mövqelərini, həm də dinc azərbaycanlıların yaşayış yerlərini iriçaplı silahlardan intensiv atəşə tutdu. 1994-cü ilin mayında atəşkəs barədə sənəd imzalansa da, Ermənistanın təxribatları bitmədi. Atəşkəs dövründə də Ermənistan silahlı qüvvələrinin yağdırdıqları atəş nəticəsində Azərbaycanın əsgər və zabitləri, eləcə də dinc sakinləri şəhid oldular. Öz evlərində, həyət-bacalarında, el-obalarında düşmən gülləsinə tuş gələnlər arasında mələk simalı körpələr, günahsız uşaqlar da vardı.

Bütün ədalətsizliklərə, haqsızlıqlara rəğmən Azərbaycan xalqı Ermənistanın işğalının başa çatacağına, o yerlərə bir gün geri dönəcəyinə, düşmənin uçurub dağıtdığı, xarabalığa çevirdiyi yurd yerlərinin, yaşayış məskənlərinin yenidən inşa olunacağına inamını itirmədi. Azərbaycan dövlətinin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hər bir azərbaycanlının bu inamını, arzularını, ümidlərini ifadə edirdi. O, bütün görüşlərində və çıxışlarında Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi məsələsinə toxunur, bununla barışmayacağımızı nəzərə çatdırırdı. Dövlət başçısı qətiyyətlə bildirirdi: "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar. Qarabağ Azərbaycandır və nida".

Qəsbkar, təcavüzkar Ermənistan törətdiyi bu dəhşətli cinayətlərə görə beynəlxalq səviyyədə cavab verməli, cəzalanmalı olduğu halda heç bir tədbir görülmürdü. Cəzasızlıq işğalçı dövləti daha da arxayınlaşdırır, azğınlaşdırırdı. Nəticədə 2020-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter aldı. İşğalçılar Azərbaycan torpaqlarında yenidən müharibə ocağını alovlandırdı...

Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatı nəticəsində başlayan İkinci Qarabağ müharibəsinin ilk günü Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev qismən səfərbərlik elan edəndə minlərlə gənc könüllü cəbhəyə yollanmaq üçün ayağa qalxdı. Azərbaycan xalqı Vətən torpaqlarını Ermənistan silahlı qüvvələrinin işğalından azad etmək üçün sıx birləşdi.

Sentyabrın 27-də Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciətində: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!", - dedi. İstər döyüş meydanlarında, istərsə də arxa cəbhədə olan hər bir azərbaycanlı haqlı olduğumuzu, bu müharibənin işğalda olan torpaqlarımızın azadlığı uğrunda aparıldığını bilirdi. İnanırdıq ki, haqq nazilər, amma üzülməz. Ermənistan silahlı qüvvələri tarixi ərazilərimizin iyirmi faizini otuz ilə yaxın işğalda saxlasalar da, orada əbədi qala bilməzdilər. Əzəli torpaqlarımızı yağı düşməndən geri almalı, xarabalığa çevirdikləri yurd yerlərimizi yenidən abad etməliydik.

## Müqəddəs amal uğrunda döyüşən güclü Azərbaycan Ordusu

Ordu quruculuğu sahəsində mühüm işlərin həyata keçirildiyini İkinci Qarabağ müharibəsindən əvvəl də dövlət başçısı İlham Əliyev diqqətə çatdırırdı. Müharibə zamanı isə bütün dünyaya bəlli oldu ki, Azərbaycanın peşəkar, yenilməz ordusu var. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı Təhlükəsizlik Şurasının iclasında bir daha bildirdi: "Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır".

Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsinin ilk günlərindən qələbə əzmi ilə irəlilədi və özünü yenilməz hesab edən Ermənistan silahlı qüvvələrinin, əslində, zəif, aciz olduğunu hər addımda göstərdi.

İgid Azərbaycan döyüşçülərinin gücü, yenilməzliyi yalnız döyüşə müasir silahlarla girmələrində deyildi. Bir məqsəd uğrunda yumruq kimi birləşmiş Azərbaycan dövlətinin və xalqının mənəvi gücünü hər an hiss edirdilər. Bilirdilər ki, Vətən torpaqlarını yağıların əsarətindən azad etmək, düşmənin tapdağından qurtarmaq naminə döyüşürlər. Ona görə də "Bu yolda öldü var, döndü yox", - deyirdilər.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciətlərinin birində xüsusi olaraq vurğuladı: "Azərbaycan Ordusu öz üstünlüyünü göstərir, Azərbaycan əsgəri və zabiti yüksək mənəvi-psixoloji keyfiyyətlər göstərir, mənəvi ruh göstərir. Çünki biz öz torpağımızda vuruşuruq, öz torpaqlarımızı azad edirik. Ermənistanın əsgərləri işğalçılardır. Döyüş gedən torpaq onların torpağı deyil".

## Tarixə dönən qüssə, həyəcan və iftixar dolu günlər

İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə də Ermənistan məkrli mövqeyində dayandı. Müharibə cinayətləri törətməkdən çəkinmədi. Döyüş meydanında məğlub olan Ermənistan silahlı qüvvələri cəbhə bölgəsindən uzaqda yerləşən şəhər və kəndlərimizi, dinc əhalini atəşə tutdu. Düşmənin xain hücumları nəticəsində çox sayda mülki şəxs, eləcə də uşaqlar, qadınlar həlak oldu, yaralandı, çoxmənzilli yaşayış binaları, evlər, obyektlər dağıldı.

Azərbaycan Ordusu öz hünərini yalnız döyüş meydanında nümayiş etdirdi. İşğalçı qüvvələr bütün istiqamətlərdə ağır itkilər verərək geri çəkilmək məcburiyyətində qaldılar. Şanlı Azərbaycan Ordusu hər döyüşdə düşmənin hərbi texnikasını darmadağın edərək, canlı qüvvəsinə ciddi zərbə vuraraq yaşayış məntəqələrimizi bir-bir azad etdilər. Ermənistan ordusunun əsgərləri döyüş əməliyyatlarında mövqelərini, hərbi texnikasını, silah-sursatını qoyub qaçdılar. Otuz ilə yaxın Ermənistanın işğalı altında qalan ərazilərimiz 44 gün ərzində yağılardan təmizləndi.

Uzun illər gözləri yollarda qalan Vətən torpaqlarının həsrətinə son qoyuldu. İkinci Qarabağ müharibəsində Azərbaycan tarixinə zəfər salnaməsi yazıldı. Bu yolda minlərlə qəhrəman canından keçdi, minlərlə igid sağlamlığını itirdi. Onlar Vətən torpaqlarına azadlıq, Azərbaycan xalqına qalib xalq kimi yaşamaq qüruru bəxş etdilər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## İranın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağırılıb



Noyabrın 11-də İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri Seyid Abbas Musəvi Xarici İşlər Nazirliyinə çağırılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə son zamanlar İran mediasında Azərbaycan əleyhinə aparılan təbliğat, qarayaxma kampaniyası, İran İslam Respublikasının yüksəkvəzifəli siyasi və hərbi rəsmilərinin iki ölkə arasındakı münasibətlərin ruhuna uyğun olmayan təhdid xarakterli ritorikaları ilə bağlı narazılıq və narahatlıq qarşı tərəfin diqqətinə çatdırılıb.

Azərbaycanın Konstitusiya quruluşunun əsaslarına qarşı cinayət törətmiş və barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilmiş Azərbaycan Respublikasının vətəndaşlarının İranda məskunlaşmalarına şərait yaradılmasının qəbuledilməzliyi və cinayətkarların təhvil verilməsinin zəruriliyi bir daha qeyd olunub.

Azərbaycan Respublikasında separatçılığı qızışdıran və cinayət təqibindən yayınaraq digər ölkələrdə gizlənən şəxslərin İran səfirliklərində qəbul edilməsinin qeyri-dost addım olduğu bildirilib.

İranda Azərbaycana qarşı bu kimi məlumatların yayımlanmasının və fəaliyyətin aparılmasının qəbuledilməz olduğu, ən qısa zamanda bunlara son verilməsinin gözlənildiyi vurğulanıb.

## XİN: "Fransa parlamentarilərinin soydaşlarımızın haqlı narazılıqları ilə bağlı müraciətə diqqət yetirəcəyini gözləyirik"

İctimai rəyə hər zaman həssaslıqla yanaşdığını iddia edən Fransa parlamentarilərinin soydaşlarımızın haqlı narazılıqları ilə bağlı müraciətlərinə diqqət yetirəcəyini gözləyirik.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib.

A.Hacızadə qeyd edib: "Göründüyü kimi, ölkəmizə qarşı ədalətsizliyə etiraz olaraq bir qrup soydaşımız tərəfindən ictimai əsasda irəli sürülmüş bu təşəbbüs qısa müddət ərzində geniş dəstək toplayıb. Məlumata əsasən, yalnız Fransadakı azərbaycanlılar deyil, bir sıra digər xarici ölkələrdə yaşayan həmvətənlərimiz də bu təşəbbüsə öz imzaları ilə dəstək veriblər. Bu addımlar həmvətənlərimiz tərəfindən göstərilən həmrəyliyin və birliyin nümunəsidir. Təqdirəlayiq haldır ki, bu müraciət qeyd edilən portalda yerləşdirilən digər petisiyalarla müqayisədə əhəmiyyətli dərəcədə çox dəstək qazanıb. Buna baxmayaraq, daha az səs toplayan və daha az əhəmiyyətə malik müraciətlərlə müqayisədə azərbaycanlıların bu petisiyasına indiyə qədər Fransa tərəfindən reaksiya bildirilməyib".

## Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Kənd təsərrüfatı naziri İnam Kərimov noyabrın 11-də Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Ağcabədi, Ağdam, Laçın və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Daha sonra nazir İnam Kərimov Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında yaradılan şəraitlə tanış olub, fermerlərə informasiya məsləhət xidmətinin göstərilməsində iştirak edən Aqrar İnkişaf Könüllülərinin bir qrupu ilə görüşüb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 52 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə subsidiya, güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə, torpaqların təyinatının dəyişdirilməsi və digər məsələlərlə bağlı olub.

Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb. Nazir vətəndaşlarla görüş zamanı dövlət başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı sərəncamların kənd təsərrüfatı istehsalçılarının rifah halının yaxşılaşdırılmasına və ölkəmizdə bu sahənin inkişafına təkan verəcəyini vurğulayıb.

Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

* * *

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov noyabrın 11-də Beyləqan Suvarma Sistemləri İdarəsinin inzibati binasında Beyləqan, Füzuli, Xocavənd və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Sədr hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Sədr Zaur Mikayılov vətəndaşlarla görüş zamanı dövlət başçısının meliorasiyanın inkişafı ilə bağlı imzaladığı sərəncamların və verdiyi tapşırıqların aqrar sahənin inkişafına, xüsusilə fermerlərin rifah halının yaxşılaşdırılmasına təkan verəcəyini vurğulayıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Nəcib maralların Azərbaycanda reintroduksiyası həyata keçirilir

Noyabrın 11-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Şahdağ Milli Parkının İsmayıllı bölməsində nəcib maralların reintroduksiyası layihəsi çərçivəsində ilk maralların təbiətə buraxılması mərasimi keçirilib.









IDEA İctimai Birliyindən AZƏRTAC-a verilən məlumata görə, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən reintroduksiya layihəsi nəcib maralların ilkin olaraq Şahdağ Milli Parkında xüsusi ayrılan yerdə adaptasiya dövrü keçməsini, daha sonra isə ölkənin müxtəlif bölgələrində maralın tarixən məskunlaşdığı yerlərdə təbiətə buraxılmasını nəzərdə tutur. Buraxılan ilk marallar Bakı Zooloji Parkı tərəfindən Azərbaycanın nadir və nəsli kəsilməkdə olan fauna növlərinin çoxaldılması üzrə IDEA İctimai Birliyi ilə əməkdaşlığı çərçivəsində təqdim edilib.

Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilən maral keçmiş dövrlərdə Böyük və Kiçik Qafqazın, eyni zamanda Talış dağlarının, Kür və Araz çaylarının tuqay meşələrində yaşayıb. Talış meşələrində sonuncu maral 100 il əvvəl, 1922-ci ildə vurulub. Hazırda nəcib maralların yaşama qabiliyyətli populyasiyalarına yalnız Böyük Qafqazda rast gəlinir. Bu dəyərli növün meşə ekosistemlərinin inkişafında potensial rolunu nəzərə alaraq, onun populyasiyasının bərpa edilməsi təbiətimiz üçün olduqca böyük əhəmiyyətə malikdir.

Son vaxtlar nəsli kəsilməkdə olan fauna növlərinin populyasiyasının tarixi areallarında təbii bərpasının təmin edilməsi məqsədilə ölkəmizin müxtəlif yerlərində, o cümlədən işğaldan azad olunmuş ərazilərində reintroduksiya layihələri həyata keçirilir. Belə ki, 2022-2023-cü illər ərzində nadir fauna növlərinin - ceyran, bezoar keçisi, Dağıstan turu və nəcib maralın, eləcə də balıq və yırtıcı quş növlərinin öz tarixi areallarına reintroduksiyası nəzərdə tutulub.

Ümumiyyətlə, dövlət səviyyəsində Azərbaycanda reintroduksiya layihələrinə geniş diqqət ayrılır. Bu xüsusda cari ilin oktyabr ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə ceyranların Cəbrayıl rayonu ərazisinə buraxılması mərasimini qeyd etmək olar.

Eyni zamanda qeyd edilməlidir ki, 2019-cu ildən etibarən Qafqazda nəsli kəsilmiş zubrun təbiətə qaytarılması üzrə IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan Nümayəndəliyi tərəfindən həyata keçirilən "Zubrların Azərbaycana reintroduksiyası" proqramı çərçivəsində Azərbaycana Avropanın müxtəlif yerlərindən zubrlar gətirilir. Həmin heyvanlar uğurla adaptasiya dövrünü keçir və aralarında təbii artım müşahidə edilir, iqlimləşmə müddətindən sonra isə onlar xüsusi adaptasiya zonasından vəhşi təbiətə buraxılır. Noyabrın 23-də daha 9 baş zubrun Azərbaycana gətirilməsi planlaşdırılır.

Nəcib marallar və digər qiymətli növlərin Azərbaycanda biomüxtəlifliyin daha da zənginləşdirilməsində rolunu nəzərə alaraq, layihənin təşkilatçıları ölkə ictimaiyyətini maralların sayının bərpa edilməsi, onların mühafizəsi və qanunsuz ovlanmasının qarşısının alınması işində dəstək olmağa çağırır.

# Leyla Əliyevanın iştirakı ilə təmizlik aksiyası







Noyabrın 10-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın, eləcə də könüllülərin iştirakı ilə növbəti sahilyanı təmizlik aksiyası keçirilib.

IDEA İctimai Birliyindən AZƏRTAC-a bildiriblər ki, "Sahillər təmiz qalsın" şüarı altında keçirilən aksiya Bakının Bilgəh çimərliyi ərazisində təşkil edilib. İməcilik zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları ərazini külli miqdarda tullantıdan, xüsusən də davamlı zərərə səbəb olan plastik tullantılardan təmizləyiblər.

Tədbirin əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və insanları dənizətrafı mühitin mühafizəsi uğrunda səylərə cəlb etməkdir.

Qeyd olunmalıdır ki, Xəzər dənizinin və Qafqaz regionunun digər su hövzələrinin unikal biomüxtəlifliyinin mühafizəsi məqsədilə IDEA çirkləndirilmiş sahilyanı ərazilərin təmizlənməsinə və bərpasına yönəlmiş müntəzəm tədbirlər təşkil edir. IDEA İctimai Birliyi hamını bir daha planetimizin qarşılaşdığı çoxsaylı problemlərin həlli, indiki və gələcək nəsillərin rifahı naminə birləşməyə və hərəkətə keçməyə, təbiətin bizə bəxş etdiyi nemətlərə həssas yanaşmağa çağırır.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## "Çıraq"ın işığı sönməyəcək



### "Əsrin müqaviləsi" çərçivəsində ilkin neftin hasil olunmasından 25 il keçir

**1997-ci il noyabrın əvvəlində Xəzərin Azərbaycan sektorundakı "Çıraq" platformasından ilkin neft alındı. Dünyanın istənilən neft-qaz regionunda hər bir karbohidrogen yatağından hasilata başlanması iqtisadi cəhətdən böyük əhəmiyyət daşıyır və mühüm hadisə sayılır. Azərbaycan üçün isə "Çıraq"dan ilkin neftin çıxarılması daha böyük önəm kəsb edirdi. Çünki bu, həmin vaxt iqtisadi durumu çox zəif olan ölkəmizin dirçəlişinə və böyük gələcəyinə hesablanmış "Əsrin müqaviləsi" çərçivəsində hasil edilən birinci neft idi.**

Noyabrın 12-də Ulu Öndər Heydər Əliyev platformaya gəldi. Burada "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi tərəfdaşları nümayəndələrinin, xarici ölkələrdən gəlmiş nüfuzlu qonaqların iştirakı ilə təntənəli tədbir keçirildi. Beləliklə, çətin sınaqlardan keçmiş qlobal bir layihənin - "Əsrin müqaviləsi"nin gerçəkliyə çevrildiyi təsdiq olundu. Bu, müəllifi Ümummilli Lider Heydər Əliyev olan yeni neft strategiyasının ilk böyük qələbəsi idi.

"Çıraq"dan hasilata başlanması sıradan bir qurğunun neft verməsi anlamından böyük məna daşıyırdı. "Çıraq" "Əsrin müqaviləsi"nin birinci platforması idi. Odur ki, ilkin neft təkcə platformadan quyuların qazılıb karbohidrogenlərin çıxarılması deyildi. Öncə genişmiqyaslı işlərin görülməsi tələb olunurdu. Belə ki, həmin işlər əvvəl mövcud olan "Çıraq-1" platformasının əsaslı təmirini, əslində, təzədən tikilməsini, Xəzərin sahilində Səngəçal və Qara dənizin sahilində Supsa terminallarının yaradılmasını, hasil olunan nefti quruya çıxarmaq üçün sualtı boru xətlərinin çəkilməsini əhatə etdi. Başqa sözlə, "Əsrin müqaviləsi" imzalanandan cəmi üç il sonra həmin saziş çərçivəsində hasilata başlanması dünyada misli görünməmiş nailiyyət, neftin çıxarılması və nəqli üçün belə geniş infrastrukturun yaradılması əsl rekord idi.

Xatırladaq ki, "Çıraq" platforması Xəzərdə, Bakı şəhərindən 120 kilometr şərqdə yerləşir. Onun dayaqları suyun 120 metr dərinliyində qərar tutub. Platformanın qurğularından quyuların qazılmasına 1997-ci ilin avqustunda başlanıb. Həmin ilin noyabrından, yəni ilk neftin əldə olunmasından bəri "Çıraq" təmir və profilaktika üçün ayrılmış qısa fasilələri çıxmaqla, ahəngdar işləyir.

"Çıraq"dan neft 24 düymlük sualtı kəmərlə Səngəçal terminalına nəql edilir. Bu xəttin uzunluğu 154 kilometrdir. Terminalda neft tərkibində gələn sudan təmizlənib çənlərə vurulur, sonra ixrac marşrutu ilə yola salınır. Yataqdan çıxarılan səmt qazı uzunluğu 50 kilometr olan 16 düymlük sualtı kəmərlə Neft Daşlarındakı kompressor stansiyasına ötürülür.

Fəaliyyətə başladığı vaxtdan bəri "Çıraq" platformasından ümumilikdə təqribən 766 milyon barel (103 milyon ton) neft hasil edilib ki, bu da AÇG-nin ümumi hasilatının təxminən beşdəbiri qədərdir. "Çıraq" ilkin olaraq 7 illik istismar üçün planlaşdırılmışdı. Lakin peşəkar işçi heyətinin əla iş icrası, yüksək ixtisas bilikləri, texnoloji bacarıqları və qətiyyəti sayəsində bu qurğu hələ də AÇG layihəsinin yeni platformaları ilə yanaşı, əməyin təhlükəsizliyi üzrə beynəlxalq standartlara uyğun, həmçinin yüksək əməliyyat səmərəliliyi ilə istismardadır. "Çıraq"ın bundan sonra uzun illər boyu işləyəcəyinə də inam var.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda hasilat üzrə vitse-prezidenti Elxan Məmmədov deyir: "Çıraq" platformasından 1997-ci ilin noyabr ayında ilk neftin əldə edilməsi günü əslində Azərbaycanın yeni neft strategiyasının əməli işdə başlandığının simvolik tarixidir. AÇG yatağından hasilat bu platformadan başlanmış və yeni inşa olunmuş daha böyük və daha müasir platformalar istirmara verilənədək, yəni 2005-ci ilədək yataqdan yeganə hasilat və ixrac mənbəyi olmuşdur. Fəxr edirik ki, hazırda 25 illiyini qeyd edən "Çıraq"da çalışan 60 bp işçisinin hamısı dünya səviyyəli yerli mütəxəssislərdir və platformanın növbəli işləyən hər iki rəhbəri də Azərbaycan vətəndaşıdır".

"Çıraq" neft platforması olmaqla yanaşı, həm də böyük uğurların platforması - özülü oldu. Belə ki, ondan sonra Xəzərdə, AÇG müqavilə sahəsində daha yeddi platforma quraşdırıldı. Onlardan dördü "Azəri" yatağında, ikisi "Dərinsulu Günəşli"də, biri "Qərbi Çıraq"da yerləşir. Bu qurğuların hamısının inşasında və istismarında "Çıraq"ın təcrübəsindən geniş istifadə edilib. Qeyd edək ki, AÇG layihəsində iştirak payları belədir: bp (30,37 faiz), SOCAR (25 faiz), MOL (9,57 faiz), İNPEKS (9,31 faiz), "Ekvinor" (7,27 faiz), "EksonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), İTOÇU (3,65 faiz), ONGCVideş (2,31 faiz).

AÇG-dən "Çıraq" da daxil olmaqla indiyədək 4,2 milyard barel (562 milyon ton) neft hasil olunub. Bununla belə, həmin yataqlar blokunda hələ çıxarılmamış xeyli karbohidrogen ehtiyatları var. Odur ki, 2017-ci il sentyabrın 14-də AÇG-yə aid yeni saziş (onu "Yeni əsrin müqaviləsi" adlandırırlar) imzalandı. 2050-ci ilədək bu yataqlar blokuna 40 milyard dollardan artıq sərmayə qoyulması nəzərdə tutulur. Beynəlxalq tərəfdaşlar Azərbaycan Respublikası Dövlət Neft Fonduna (ARDNF) 3,6 milyard dollar bonus ödəyəcəklər. İndi AÇG "ailə"si növbəti platformanın yolunu gözləyir. Bu, "Yeni əsrin müqaviləsi" çərçivəsində tikilməkdə olan "Azəri Mərkəzi Şərqi" (ACE) platformasıdır.

Platformanın əsas hissələrindən olan dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda tikilir. Üst modullar isə Bayıldakı tikinti-quraşdırma sahəsində inşa edilir. Bir sözlə, ACE-dən ilk hasilatı 2023-cü ildə əldə etmək üçün işlər qrafikə uyğun davam edir.

"İlkin"i "Çıraq" olan AÇG Azərbaycana böyük miqdarda valyuta ehtiyatları gətirdi. Dövlətimiz bu ehtiyatlardan səmərəli istifadə edərək onları ölkənin əsas inkişaf istiqamətlərinə yönəltdi. Beləliklə, iqtisadi inkişaf təmin edildi, insanların rifah halı yüksəldi. Eyni zamanda çoxsaylı infrastruktur layihələri icra edildi, sosial məsələlər öz həllini tapdı. 1999-cu ildə Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində ARDNF yaradıldı. Sonrakı illərdə ölkənin sosial-iqtisadi inkişafına yönəldilən daxili investisiyaların xeyli hissəsi məhz bu fondun hesabına formalaşdı.

Prezident İlham Əliyev "Azəri-Çıraq-Günəşli"də hasilatın sabit saxlanılmasının vacib məsələ olduğunu qeyd edərək demişdir ki, bu yataqlar bizim əsas gəlir mənbəyimizdir və bunu hər kəs bilməlidir.

AÇG-dən, o cümlədən "Çıraq"dan hasilat davam edir və ölkəmizə yeni iqtisadi mənfəətlər gətirir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## İqtisadiyyatda işləyənlərin orta aylıq əməkhaqqı 14,4 faiz artmışdır

Cari il oktyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 28,6 min nəfər və ya 1,7 faiz artaraq 1 milyon 727,9 min nəfər olmuşdur.



Onlardan 898,0 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 829,9 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, muzdla işləyənlərin 19,1 faizi təhsil, 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,7 faizi sənaye, 8,2 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,5 faizi tikinti, 6,5 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,5 faizi peşə, elmi və texniki fəaliyyət, 2,0 faizi maliyyə və sığorta fəaliyyəti, 14,0 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2022-ci ilin yanvar-sentyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 14,4 faiz artaraq 827,4 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## 142 - Çağrı Mərkəzi 1,3 milyona yaxın vətəndaşın müraciətini cavablandırıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 142 - Çağrı Mərkəzi tərəfindən bu il 1,3 milyona yaxın vətəndaş müraciəti cavablandırılıb.



Müraciətlər pensiya, müavinət, təqaüd, ünvanlı sosial yardım, əlillik təyinatı, mənzil və avtomobillə, reabilitasiya xidmətləri və vasitələri ilə təminat, əmək münasibətləri, məşğulluq xidmətləri, özünüməşğulluq proqramına, peşə hazırlığına cəlb olunmaq, sosial xidmət və s. məsələlərlə bağlı olub.

Hər bir vətəndaş müraciəti qanunvericilik çərçivəsində araşdırılaraq nəticəsinə uyğun tədbirlər görülüb, sorğu xarakterli müraciətlərlə bağlı vətəndaşlara hüquqi izahatlar verilib.

Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı çərçivəsində çağrı mərkəzlərinin işinin təkmilləşdirilməsi də nəzərdə tutulub.

Hazırda Çağrı Mərkəzində 110 nəfərdən ibarət işçi heyəti çalışır. Mərkəzə edilən zənglərin cavablandırılması üçün orta gözləmə müddəti bu ilin 10 ayı üzrə daha da azalaraq 29 saniyəyə enib. Bu göstərici 2020-ci ildə 8,5 dəqiqə olub.

Vətəndaşların 142 - Çağrı Mərkəzindən məmnunluq səviyyəsi isə 93 faiz təşkil edir.

## Tədarük məntəqələrinə 240 min tondan çox pambıq təhvil verilib

Kənd Təsərrüfatı Nazirliyinin yaydığı məlumatda bildirilir ki, ölkədə mexanikləşdirilmiş üsulla kütləvi pambıq yığımı davam edir.

Bu il Azərbaycanın 16 rayonunda ümumilikdə 100 min hektardan artıq sahədə pambıq əkini aparılıb. Ən çox pambıq Saatlı, Ağcabədi, Sabirabad və Bərdə rayonlarının ərazisində əkilib. Bu rayonların ərazisində pambıq əkinlərinin sahəsi 11 min hektardan çoxdur. Ümumilikdə respublika üzrə pambıq əkini sahələrinin 45 faizdən çoxu bu 4 rayonun payına düşür.

Vegetasiya müddəti başa çatdıqdan sonra məhsulun kombaynlar vasitəsilə kütləvi yığımına start verilib. Məhsul yığımı prosesinə 447 kombayn və 3085 traktor yedəyi cəlb olunub. Pambıqyığan kombaynların sayı sahələrdən məhsulun 100 faizə yaxınını texnika vasitəsilə yığmağa imkan verir.

Son məlumata görə, fermerlər tərəfindən kondisiya çəkidə 240 min tondan artıq pambıq yığılaraq tədarük məntəqələrinə təhvil verilib. Hazırda respublika üzrə pambığın orta məhsuldarlığı 23.04 sent/ha təşkil edir. Ağcabədi, Ağdam, Beyləqan, Bərdə, İmişli, Saatlı, Yevlax və Zərdab rayonlarında orta məhsuldarlıq göstəricisi ümumrespublika göstəricisindən yüksəkdir.

Dövlət dəstəyinin genişləndirilməsi fermerlərin pambıq əkininə marağını artırıb. Aqrar Subsidiya Şurasının qərarına əsasən, bu ildən tədarük məntəqələrinə təhvil verilən pambığa görə yalnız məhsul subsidiyası verilir. Eyni qərarla məhsul subsidiyasının məbləği hər tona görə 100 manatdan 170 manata qaldırılıb.

Kənd Təsərrüfatı Nazirliyinin pambıq tədarükü və emalı müəssisələri ilə apardığı müzakirələr nəticəsində 2022-ci ildə şirkətlər tərəfindən xam pambığın alış qiyməti yanvar və avqust aylarında hər dəfə 50 manat olmaqla iki dəfə artırılıb. Ötən il 1-ci sort pambığın 1 tonu fermerlərdən 700 manata alınırdısa, bu il təhvil verilən eyni sort pambığın 1 tonuna görə fermerlərə 800 manat ödənilir. Məhsul subsidiyasına keçid və pambığın alış qiymətinin artırılması fermerləri aqrotexniki becərməni daha yaxşı aparmağa, daha çox məhsul istehsal edərək daha çox gəlir əldə etməyə sövq edir.

Respublikada pambıq yığımının optimal müddətdə başa çatacağı proqnozlaşdırılır.



## İstehlak bazarında qiymətlər necə dəyişib



Bu ilin yanvar-oktyabr aylarında istehlak qiymətləri indeksi 2021-ci ilin eyni dövrünə nisbətən 113,7, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 119,4, qeyri-ərzaq məhsulları üzrə 107,9, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 110,4 faiz təşkil etmişdir.

Cari ilin oktyabr ayında isə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,6, əvvəlki ilin oktyabr ayına nisbətən 115,6 faiz olmuşdur. Bu ay əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox bahalaşma unun, makaron məmulatlarının, peçenyenin, vaflinin, mal, qoyun və toyuq ətinin, təzə balığın, südün, yoqurtun, kəsmiyin, xamanın, pendirin, yumurtanın, qarğıdalı yağının, portağalın, bananın, pomidorun, kartofun, soğanın, çuğundurun, yerkökünün, şəkər və şəkər tozunun, konfetlərin, çayın, meyvə şirəsinin, arağın, ucuzlaşma isə əsasən almanın, naringinin, limonun, xiyarın, kələmin, balqabağın, sarımsağın, göy lobyanın qiymətlərində müşahidə edilmişdir. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

Dövlət Statistika Komitəsinin məlumatında daha sonra bildirilir ki, ötən ay qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,3, əvvəlki ilin oktyabr ayına nisbətən 110,9 faiz təşkil etmişdir.

Cari ilin oktyabr ayında əvvəlki ayla müqayisədə qeyri-ərzaq məhsullarından daha çox bahalaşma geyimin, ayaqqabıların, boyaların, mebellərin, paltaryuyan maşınların, televizorların, kompüterlərin, xalçaların, sabunların, diş pastalarının, ucuzlaşma isə əsasən kəsilmiş taxtaların, sementin və yazı kağızlarının qiymətlərində müşahidə olunmuşdur. Digər qeyri-ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

Oktyabr ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,9, əvvəlki ilin oktyabr ayına nisbətən 112,0 faiz olmuşdur. Əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən daha çox bahalaşma mənzillərin icarə haqlarında, ayaqqabıların, məişət cihazlarının, minik avtomobillərinin təmiri, ictimai iaşə, stomatoloji, bərbərxana və kosmetoloji xidmətlərin qiymətlərində, ucuzlaşma isə hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətlərində müşahidə olunmuşdur. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər qeydə alınmamışdır.

## "Azərişıq" ASC elektrik enerjisinin növbəti talanması faktını aşkara çıxarıb

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, qeyri-əhali abonenti olan şəxs elektrik sayğacına bu dəfə daha çox rast gəlinən üsullarla yox, daha gizli bir variantla müdaxilə edib.

Sayğaca aylıq baxış zamanı isə bu xoşagəlməz hal müəyyən olunub. Yoxlama zamanı məlum olub ki, sayğacın arxa hissəsindən xüsusi dəlik açılaraq, sayğacın kontaktrının kommunikasiya naqilləri kəsilib.

Qeyd edək ki, "Azərişıq" ASC-nin müvafiq strukturları bu istiqamətdə mütəmadi monitorinqlər keçirir və istənilən neqativ halların qarşısı alınır. Üstəlik, istismara verilən sayğaclar müasir və rəqəmsal olduğundan bütün müdaxilə halları sayğacın yaddaş blokunda əks olunur. Laboratoriya şəraitində sayğaclara proqram əlavəsi tətbiq olunaraq həmin müdaxilə halları detallı şəkildə təsdiqini tapır.

Kənar qoşulmalar təkcə elektrik enerjisinin talanması, ödənməli olan məbləğdən yayınmaq demək deyil. Bu həm də elektrik təsərrüfatına ziyanın vurulması ilə nəticələnir, digər abonentlərin də keyfiyyətli, fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunmasına maneələr yaradır.

"Azərişıq" ASC bütün abonentləri xəbərdar edir ki, elektrik sayğaclarına müdaxilə aşkar olunarsa, həmin vətəndaşlar barəsində qanunamüvafiq tədbirlər görüləcəkdir.

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri
Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

12 Noyabr
Konstitusiya Günü
münasibətilə
təbrik edir, ölkəmizə
əbədi müstəqillik
arzulayır







# Ölkəmizdə elm və təhsilin inteqrasiyası istiqamətində mühüm addımlar atılır

"Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərmana əsasən, yeni yaradılan Elm və Təhsil Nazirliyinə bu sahədə dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi ilə bağlı səlahiyyətlər həvalə edildi. Bunu ölkəmizdə elm və təhsilin inteqrasiyası istiqamətində atılan mühüm addım kimi səciyyələndirmək olar. Beynəlxalq təcrübəyə baxsaq, dünyanın inkişaf etmiş aparıcı dövlətlərində elm və təhsil bir-birinə inteqrasiya olunmuş formada inkişaf edib təşəkkül tapmışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Elm və Təhsil Nazirliyinin tabeliyinə verilən elmi-tədqiqat institutlarından biri də akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutudur (AKİ). Elm ocağı yarandığı vaxtdan prioritet istiqamətlərə uyğun fundamental və tətbiqyönümlü tədqiqatlarla yanaşı, beynəlxalq elmi əməkdaşlığa, yüksəkixtisaslı kadr hazırlığına, o cümlədən elmlə təhsilin inteqrasiyasına önəm verməkdədir. Hazırda institutun Bakı Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Mühəndislik Universiteti, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Gəncə Dövlət Universiteti ilə sıx əməkdaşlıq əlaqələri vardır.

Elmlə təhsilin inteqrasiyasının ən mühüm istiqamətlərindən biri də elmi-tədqiqat müəssisələrinin özündə magistr hazırlığıdır. Digər elmi institutlar kimi Aşqarlar Kimyası İnstitutunda da 2016-cı ildən magistr pilləsi üzrə kadr hazırlığı həyata keçirilir. Elmdə fasiləsizliyin aradan qaldırılmasına xidmət edən bu proses böyük elmin astanası hesab edilir. Çünki bu hazırlıq üzrə magistrantlar tədqiqat vərdişlərinə yiyələnir, elmin sirlərini öyrənməyə başlayır, fasiləsiz olaraq elmin pillələri ilə yüksəlirlər.

Aşqarlar Kimyası İnstitutunda magistraturanı bitirənlərin hamısı bu elmi tədqiqat müəssisəsində qalıb müxtəlif vəzifələrdə işləyirlər. Hətta onların bir çoxu artıq doktorantura pilləsində elmi araşdırmalarını davam etdirirlər.

Elmlə təhsilin vəhdətinin yaradılması, tələbə və magistrantlarda tədqiqatçılıq vərdişlərinin formalaşdırılması və ən əsası, istedadlı gənc mütəxəssislərin elmə axınını təmin etmək məqsədilə kimya profilli elmi tədqiqat müəssisələri içərisində yeganə Aşqarlar Kimyası İnstitutunda ölkəmizin flaqman ali təhsil ocağı olan Bakı Dövlət Universitetinin (BDU) "Neft kimyası və kimya texnologiyası" kafedrasının filialı - baza kafedrası fəaliyyət göstərir. BDU-nun bakalavriatları və magistrantları diplom və kurs işlərini burada yerinə yetirirlər. 2018-2021-ci illər ərzində Bakı Dövlət Universitetinin "Kimya" ixtisası üzrə IV kursda təhsil alan 230 tələbəsi mütəmadi olaraq qruplar şəklində institutumuzda istehsalat təcrübəsi keçmiş, ayrı-ayrı laboratoriyalarda cihaz və avadanlıqların iş prinsipləri, müasir fiziki-kimyəvi analiz üsulları ilə yaxından tanış olmuş, bəzi təcrübələri yaxından izləmişlər. Tələbələr eyni zamanda zərif üzvi sintez və aşqarlar kimyası sahəsində institut əməkdaşları tərəfindən prioritet istiqamətlər üzrə yerinə yetirilən və əldə olunan elmi tədqiqatların mühüm nəticələri ilə bağlı seminar məruzələrini dinləmişlər. 2022-ci ildə isə bu tələbələrin sayı 126-ya çatmışdır.

İnstitutda həmçinin müxtəlif vaxtlarda Sumqayıt Dövlət Universitetinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbələri də təcrübə keçmiş, Bakı şəhərinin müxtəlif lisey və orta ümumtəhsil məktəblərinin şagirdləri ekskursiyada olmuşlar. Ali təhsil müəssisələrində yaradılmış SABAH qruplarında təhsil alan tələbələr AMEA AKİ-nin laboratoriyalarında təcrübə keçmişlər.

2018-ci ildə Aşqarlar Kimyası İnstitutunda Təhsil Nazirliyinin (indiki Elm və Təhsil Nazirliyi) ideyası və təşkilatçılığı ilə ərsəyə gələn "Sabahın alimləri" VII Respublika müsabiqəsi çərçivəsində 2 məktəbli - Nizami rayonu 251 saylı orta məktəbin 10-cu sinif şagirdləri elmi layihə yerinə yetirmişlər. Onlardan biri Türkiyənin İzmir şəhərində 2018-ci ildə keçirilən "OKSEF-2018" beynəlxalq müsabiqənin final mərhələsinə seçilərək 38 xarici ölkədən 450 iştirakçının qatıldığı bu layihə olimpiyadasında ölkəmizə bürünc medal qazandırmışdır.

"Sabahın alimləri" VIII Respublika müsabiqəsi çərçivəsində hazırlanan 2 məktəbli - Nizami rayonu 251 saylı orta məktəbin 11-ci sinif şagirdləri Türkiyənin İzmir şəhərində 2019-cu ildə keçirilən "OKSEF-2019" beynəlxalq müsabiqənin final mərhələsinə vəsiqə qazanmışlar. Layihənin təcrübi hissəsi 2018-2019-cu illər ərzində Aşqarlar Kimyası İnstitutunun "Yağlayıcı-soyuducu mayelərə aşqarlar" laboratoriyasında yerinə yetirilmişdir.

"Sabahın alimləri" IX Respublika Müsabiqəsinə "Tibb və sağlamlıq" bölməsi üzrə qoşulan Mingəçevir şəhər Səməd Vurğun adına 16 nömrəli tam orta məktəbin 2 şagirdinin İnstitutun "Fizioloji fəal üzvi birləşmələr" laboratoriyasında yerinə yetirdikləri "Acı badamdan müalicəvi badam yağının alınması" layihəsi müsabiqənin fərqlənmə diplomuna layiq görülmüşdür.

26 noyabr 2021-ci ildə Türkiyənin İzmir şəhərində onlayn formatda keçirilən "BUCA IMSEF-2021 Beynəlxalq Elm Müsabiqəsi"nə qatılan dünyanın 27 ölkəsindən 166 layihə sırasında final mərhələsinə vəsiqə qazanan Mingəçevir şəhəri Təbiət-Riyaziyyat və Humanitar elmlər təmayüllü liseyin və Səməd Vurğun adına 16 nömrəli tam orta məktəbin 2 şagirdinin Aşqarlar Kimyası İnstitutunun ideya dəstəyi və elmi məsləhəti ilə kimya fənni üzrə hazırladıqları innovativ layihə bürünc medala layiq görülmüşdür. Onlar eyni zamanda 2022-ci ildə keçirilən "Sabahın alimləri" XI Respublika Müsabiqəsinə "Kimya" bölməsi üzrə qatılaraq III yerin qalibi olmuşlar.

İnstitutda Bakı Dövlət Universitetinin alimləri ilə birgə Azərbaycan Respublikası Prezidentinin yanında Elmin İnkişafı Fondunun "Elm-təhsil inteqrasiyası" məqsədli qrant müsabiqəsində qazanılmış "Alkil (alkenil) fenollar əsasında neft məhsullarının mikrobioloji zədələnməsinin və biokorroziya proseslərinin qarşısını alan reagentlərin işlənib hazırlanması" layihəsi üzrə elmi tədqiqatlar yerinə yetirilmişdir. Elm ocağı Bakı Mühəndislik Universiteti ilə həm "Kompüter kimyası" istiqamətində müştərək beynəlxalq tədqiqatlar aparır, həm də birgə elmi rəhbərliklə yüksəkixtisaslı kadr hazırlığı sahəsində əməkdaşlıq edir.

İnstitut tərəfindən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin və Azərbaycan Dövlət Pedaqoji Universitetinin doktorant, dissertant və magistrantlarına dissertasiya işlərinin təcrübi hissəsinin yerinə yetirilməsinə elmi və texniki dəstək verilir.

Əməkdaşlarımız müxtəlif ali təhsil müəssisələrində pedaqoji fəaliyyət göstərir, mühazirə və laboratoriya dərslərini tədris edir, bakalavriatlara və magistrantlara elmi rəhbərlik edirlər. O cümlədən əməkdaşlarımız universitetlərdə fəaliyyət göstərən "Kimya" və "Kimya mühəndisliyi" ixtisasları üzrə bakalavr tələbələrin diplom işlərinin müdafiə şuralarına sədrlik etmişlər.

İnstitutun alimləri eyni zamanda respublikamızın müxtəlif rayonlarında (Bərdə, Yevlax, Abşeron) yerləşən işğaldan azad olunmuş rayonların məktəblərində gənclərin peşə təhsilinə cəlb olunması istiqamətində həyata keçirilən maarifləndirilmə seminarlarında məruzəçi qismində iştirak edib, öz təklif və tövsiyələrini veriblər.

Bütün bunlar Aşqarlar Kimyası İnstitutunun timsalında elmlə təhsilin inteqrasiyasının bir nümunəsidir. Hesab edirik ki, dəqiq və təbiət elmləri üzrə ixtisaslaşmış institutların Elm və Təhsil Nazirliyinin tabeliyinə verilməsi elmlə təhsilin tam vəhdətinin yaradılması, o cümlədən Azərbaycan elminin dünya elminə inteqrasiya prosesinin sürətləndirilməsi, elmin populyarlaşdırılması, istedadlı gənclərin elmə cəlb olunması istiqamətində atılmış ən mühüm addımdır.

Elm və Təhsil Nazirliyinin mövcud imkanlarından istifadə edərək yerinə yetirilməli işlərdən biri dəqiq və təbiət elmi bölmələrinin bütün institutlarının ali təhsil müəssisələri ilə elmi əlaqələndirilməsini sürətləndirmək, ardınca Azərbaycan elminin dünya elminə inteqrasiyasının əsas vasitələrindən biri kimi institutlarda prioritet sahələr üzrə beynəlxalq laboratoriyaların yaradılmasına nail olmaqdır. Məlum olduğu kimi, Fizika, Kataliz və Qeyri-üzvi Kimya, Molekulyar Biologiya və Biotexnologiyalar, Genetik Ehtiyatlar, Geologiya və Geofizika institutlarında mövcud olan müştərək beynəlxalq laboratoriyalar özünü tam doğrultmuş, adıçəkilən institutların elmi göstəricilərində həmin laboratoriyalarda həyata keçirilən tədqiqatlar zamanı əldə olunan nəticələr nəzərəçarpacaq pay sahibinə malikdir.

Beynəlxalq laboratoriyaların yaradılması mümkün olmayan institutlarda alimlərin müştərək beynəlxalq tədqiqat qruplarına cəlb olunması təşviq edilməlidir. Bunun üçün əlverişli üsul dünyanın aparıcı elm mərkəzlərində çalışan görkəmli azərbaycanlı alimlərin bütün imkanlarından istifadə edilməsidir. Onlar özləri də bu kimi təkliflərə müsbət yanaşır, vaxtaşırı belə təşəbbüslərlə çıxış edirlər. Tanınmış alimlərimizin yanına ayrı-ayrı prioritet istiqamətlər üzrə seçilmiş gənc alim və mütəxəssislər qısa və ortamüddətli təcrübə keçməyə göndərilə bilər.

O cümlədən son illər ən mühüm elmi nailiyyətlərin, elmi kəşf və ixtiraların ayrı-ayrı elmlərin sərhədlərində baş verdiyi üçün universitetlərlə aparılacaq müştərək beynəlxalq tədqiqatlar zamanı multidissiplinar (fənnlərarası) mövzulara geniş yer verilməlidir. Bu gün institutlara həm də ən son texnologiyaların gətirilməsinə ehtiyac var.

Univeristetlərdə mövcud olan tələbə elmi cəmiyyətlərini böyük elmin astanasına çevirmək üçün tədqiqat institutları əməkdaşlıq etdikləri ali təhsil müəssislərində elmə böyük marağı olan istedadlı tələbələrin müasir və aktual mövzularda birgə elmi seminarları təşkil olunmalıdır. Eyni zamanda qarşılıqlı əlaqəli (interaktiv) müzakirələr, konfrans, kitab sərgiləri, "dəyirmi masa"lar, elmi-praktiki seminarlar, açıq elmi-populyar mühazirələr, debatlar, ustad dərsləri, Nobel mükafatçılarının elmi fəaliyyəti haqqında məlumatlandırmalar, treninqlər də keçirilməlidir.

Elmlə təhsilin vəhdəti təkcə universitetlərlə deyil, orta məktəblərlə də olmalıdır.

Eyni zamanda ölkə iqtisadiyyatının inkişafı üçün yalnız elm-təhsilin vəhdəti kifayət deyil. Bu cütlüyə istehsalat da daxil olmalıdır. Bir sözlə, ölkə iqtisadiyyatının lazımi səviyyədə inkişafı üçün elm-təhsil-istehsalatın vəhdəti mümkün qədər möhkəm olmalıdır. Elm və Təhsil Nazirliyinin tabeçiliyinə verilən institutların elmi-tədqiqat işlərinin nəticələrinin istehsalata tətbiqi sahəsində kifayət qədər təcrübəsi və nailiyyəti var. Qeyd olunan istiqamətdə universitetlərin fəaliyyəti qənaətbəxş deyil. Ona görə elmi-tədqiqat institutları bu sahədə də universitetlərə yaxından kömək etməlidirlər.

Ümid edirik ki, elmi-tədqiqat institutlarının Elm və Təhsil Nazirliyinin tabeçiliyinə verilməsi respublikamızda elm-təhsil-innovasiya üçbucağının tam formalaşmasını təmin edəcək, bundan sonra ölkəmizdə elm və təhsil keyfiyyət nöqteyi-nəzərdən artan dinamika üzrə inkişafda olacaq.

*Vaqif FƏRZƏLİYEV,*
*Aşqarlar Kimyası İnstitutunun baş direktoru, akademik*

# 9 ayda qeyri-neft məhsullarının ixracı 17 faiz artıb

## "Azərkosmos"un xidmətindən isə 38 ölkə istifadə edib

Ölkə üzrə qeyri-neft sektorunda məhsul ixracının çəkisi artmaqla yanaşı, coğrafiyası da genişlənir. Cari ilin 9 ayında ixracda ən çox artım kimya sənayesi məhsullarında qeydə alınıb. Aqrar sektorda isə meyvə-tərəvəz ixracının çəkisi yüksək olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın oktyabr sayına əsasən, cari ilin yanvar-sentyabr aylarında Azərbaycanın ümumi ixracının dəyəri 29,5 milyard, o cümlədən qeyri-neft sektoru üzrə 2,1 milyard dollar təşkil edib. Həmin dövrdə qeyri-neft sektoru üzrə ixrac ötən ilin 9 ayı ilə müqayisədə 17 faiz artıb.

Yanvar-sentyabr ayları ərzində kimya sənayesi məhsullarının ixracında 2,4 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixracında 38, qara metallar və onlardan hazırlanan məmulatların ixracında 20,7 faiz artım qeydə alınıb.

Aqrar və aqrar sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri isə 591,5 milyon dollara çatıb. 9 ayda ixrac edilən meyvə-tərəvəz məhsullarının aqrar məhsullar qrupundakı payı 92,9 faiz olub. Qeyri neft-qaz məhsulları ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı əlavə dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 17,6 faiz artıb.

Hesabat dövründə ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında karbamid birinci, pambıq mahlıcı ikinci, tomat üçüncü yerdə qərarlaşıb. Cari ilin 9 ayı ərzində ölkəmizdən Rusiya Federasiyasına 602,2 milyon, Türkiyəyə 511,6 milyon, Gürcüstana 144,6 milyon, İsveçrə Konfederasiyasına 136,3 milyon, ABŞ-yə 63,8 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac olunub.

Cari ilin sentyabr ayı üzrə ixracın dəyəri isə 3,3 milyard, o cümlədən qeyri-neft sektoru üzrə 231,2 milyon dollar təşkil edib. Bu ay ərzində yeyinti məhsulları üzrə ixrac 7,4 faiz artaraq 49,7 milyon, qeyri-yeyinti məhsulları üzrə 1,7 faiz artaraq 181,6 milyon dollara bərabər olub. Həmin ay qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası birinci, Türkiyə ikinci və Gürcüstan üçüncü yerdə qərarlaşıb. İxrac olunan mal və məhsullara gəldikdə, polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr 21,4 milyon dollarla birinci, karbamid 21,3 milyon dollarla ikinci və qızıl 18,4 milyon dollarla üçüncü olub.

Yanvar-sentyabr aylarında "Azərkosmos" tərəfindən dünyanın 38 ölkəsinə 19,3 milyon dollar dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 82 faizini təşkil edib. Sentyabr ayında isə "Azərkosmos" dünyanın 35 ölkəsinə 2,1 milyon dollar dəyərində xidmət göstərib. Peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində 5 milyon dollarla Birləşmiş Krallıq, 3,9 milyon dollarla Fransa, 3,3 milyon dollarla Lüksemburq, 1,8 milyon dollarla BƏƏ və 1,1 milyon dollarla Pakistan olub.

İcmalda o da bildirilir ki, bu ilin 9 ayı ərzində Azexport.az portalı 356,3 milyon dollar dəyərində ixrac sifarişləri alıb. Sentyabr ayında portala daxil olan ixrac sifarişlərinin dəyəri isə 35,1 milyon dollar təşkil edib. Həmin ay portala edilən ixrac sifarişlərində alma, xurma, qoz, pomidor, qurudulmuş meyvə, kərə yağı, mühərrik yağı, tikinti materialları, alüminium ərintiləri, buğda kəpəyi, düyü, nar, fındıq və s. məhsullar daha çoxdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından cari il sentyabrın sonunacan Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 3,048 milyard dollar olub. "İxrac İcmalı"nda həmçinin göstərilib ki, bu ilin oktyabr ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft məhsulları ixracının dəyəri 19,7 milyon dollara çatıb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Gəncədə Mustafa Kamal Atatürkün anım günü keçirilib

Türk dünyasının dahi şəxsiyyəti Mustafa Kamal Atatürkün vəfatından 84 il ötür. Bununla əlaqədar Türkiyənin Gəncədəki baş konsulluğunda anım mərasimi keçirilib.





Anım mərasimində Gəncə ŞİH-nin başçısı Niyazi Bayramov, şəhərin hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Azərbaycanın və Türkiyənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlanan tədbirdə Mustafa Kamal Atatürkün xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Tədbirdə Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk Qazi Mustafa Kamal Atatürkün vəfatının 84-cü ildönümü ilə əlaqədar məruzə ilə çıxış edib. Deyib ki, 1919-cu ildə milli mücadiləyə başlayan Mustafa Kamal Atatürk indiki demokratik Türkiyənin əsasını qoyub, güclü dövlət yaradıb. Məhz Atatürkün səyi və təşəbbüsü ilə 29 oktyabr 1923-cü ildə Türkiyə cümhuriyyət elan olunub. Dahi şəxsiyyətin apardığı bir sıra islahatlar nəticəsində ölkə sürətlə inkişaf edib. Bu gün türk xalqı böyük Atatürkün miras qoyduğu ideyaları həyata keçirir.

Məruzəçi onu da qeyd edib ki, Mustafa Kamal Atatürk Azərbaycan xalqının qəlbində böyük iz buraxıb. Ulu Öndər Heydər Əliyev Atatürk haqqında demişdir: "Mustafa Kamal Atatürk bütün türk dövlətlərinin tarixi şəxsiyyətidir. Bütün türk dünyasının əvəzsiz, ölməz lideridir. Atatürkün hələ o zamanlar "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" deməyi bu iki dövlətin bir-birinə olan qardaşlıq əlaqələrini daha da möhkəmləndirmişdir".

Sonda Mustafa Kamal Atatürkün xatirəsinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Fransada nəqliyyat işçiləri tətil edirlər

## Bir çox metrostansiya bağlanıb, şəhərətrafı qatarların hərəkəti dayanıb






Fransada yenidən nəqliyyat işçilərinin ümummilli tətili keçirilir. Ölkənin bütün şəhərlərində ictimai nəqliyyatın işində fasilələr yaranıb. Parisdə onlarca metro və şəhərətrafı qatar stansiyaları bağlanıb. Həmkarlar ittifaqları və etirazçılar yaşayış dəyərinin bahalaşmasına uyğun olaraq maaşların artırılmasını tələb edirlər.

"Euronews" telekanalının xəbərinə görə, metro və şəhərətrafı qatarların hərəkətinin dayandırılması ilə bağlı qarşıya qoyulan məqsəd praktiki olaraq həyata keçirilib. Parisdə bir çox metrostansiya bağlıdır. Sərnişin axınının böyük hissəsi yalnız pik saatlarda qatarlarla təmin ediləcək.

Paris metrosunun 30-dan çox stansiyası cümə axşamı ictimai nəqliyyat işçilərinin maaşların artırılması tələbi ilə tətilə çıxması səbəbindən bağlanıb. Bu barədə Paris Nəqliyyatının Muxtar İdarəetmə Mərkəzinin (RATP) məlumatında deyilib.

"Gün ərzində metronun, avtobusların və tramvayların fəaliyyətində ciddi pozuntular olub. Şəhərətrafı qatarların hərəkəti də əhəmiyyətli dərəcədə məhdudlaşdırılıb", - deyən RATP fransızları ictimai nəqliyyatda səyahəti təxirə salmağa və evdən işləməyə üstünlük verməyə çağırıb.

Parisin İle-de-Frans bölgəsində baş verən tətil səbəbindən səhər saatlarından etibarən əsas magistral yollarda ciddi tıxaclar müşahidə olunub. Metropolitenin hərəkətinə nəzarət xidməti olan "Sytadin"in məlumatına görə, Parisdə və onun ətraf ərazilərində tıxaclar artıq 350 kilometri keçib.

Fransanın, demək olar ki, bütün böyük şəhərlərində ictimai nəqliyyatda fasilələr müşahidə olunub. Strasburqda 20-yə yaxın avtobus marşrutunda nəqliyyatın hərəkəti dayandırılıb. Tuluzada Tuluza-Blanyak Hava Limanına avtobus reysləri ləğv edilib.

Avtomobil nəqliyyatı işçilərinin tətili Fransanın ən böyük həmkarlar ittifaqı olan Ümumi Əmək Konfederasiyasının (CGT) çağırışı ilə keçirilir. Həmkarlar ittifaqı mərkəzləri yüksək inflyasiya fonunda sənayedə çalışan işçilərin maaşlarının artırılmasını tələb edirlər.

Fransanı bürüyən sosial etiraz sentyabrın 27-də "TotalEnergies" və "Esso-ExxonMobil" transmilli energetika qruplarının müəssisələrindən başlayıb. Bu şirkətlərin işçiləri inflyasiyanın sürətlə artması fonunda maaşların ən azı 10 faiz artırılmasını tələb ediblər.

Son aylarda Fransa hakimiyyəti inflyasiyanın qarşısını ala bilməyib. Milli Statistika və İqtisadi Tədqiqatlar İnstitutunun (Insee) ekspertlərinin hesablamalarına görə, sentyabr ayına qədər ərzaq məhsulları 9,9 faiz bahalaşıb. Enerji təchizatının dəyəri nəzərəçarpacaq dərəcədə artıb (17,8 faiz).

Fransa Bankının (Mərkəzi Bank) prezidenti Fransua Vilerua de Qalo ölkədə inflyasiya səviyyəsinin ilin sonuna qədər yüksək səviyyədə qalacağı ilə bağlı xəbərdarlıq edib. Çoxsaylı həmkarlar ittifaqları bunun etirazın yalnız başlanğıcı olduğunu və xüsusən də işçilərin tələbləri eşidilməzsə, ictimai hərəkatın yaxın həftələrdə və aylarda genişlənəcəyini iddia edirlər.

Paris və Fransanın digər şəhərlərində küçələrə çıxan işçilər maaşların yüksəldilməsini, iş şəraitinin yaxşılaşdırılmasını, xüsusən də pensiya islahatları ilə bağlı Prezident Emmanuel Makronun administrasiyasına təzyiqlərin artırılmasını tələb edirlər. Ölkədə növbəti tətillər üçün artıq çoxsaylı çağırışlar var. Parisdə nəqliyyat işçiləri gələn həftə buna başlamağı planlaşdırırlar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***










# OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 14.11.2022-ci il saat 23:30-dan etibarən 15.11.2022-ci il gecə saatları ərzində, 22.11.2022-ci il və 25.11.2022-ci il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

tabeliyində olan struktur idarələrinə tələb olunan boya qatqılarının satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 25 noyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

gəmiləri üçün ehtiyat hissələrin satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 16 noyabr 2022-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 08.07.2022-ci tarixdə elan edilmiş 330 kV "Cənub Elektrik Stansiyası - Ələt Günəş-Elektrik Stansiyası" elektrik veriliş xəttinin tikilməsi və elektrikquraşdırma işlərinin satın alınması üzrə açıq tender üsulu ilə keçirilən müsabiqədə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən **"ELEKTRİKQURAŞDIRMA"** Müəssisəsi müsabiqənin qalibi müəyyən edilmişdir. Qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Malgöndərənin (podratçının) 2022-ci il 11 noyabr tarixli müraciətinə əsasən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2022-ci il 30 avqust tarixdə elanı verilmiş Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Göygöl, Salyan, Lənkəran rayonlarında və Mingəçevir, Şirvan şəhərlərində 1, 2 və 3 otaqlı mənzillərin satınalınması ilə əlaqədar keçiriləcək açıq tender üzrə qiymət təkliflərinin verilməsi tarixi və vaxtı 2022-ci il 15 noyabr saat 15:00-dan 2022-ci il 30 noyabr saat 15:00-dək uzadılsın. Tender təkliflərinin açılış tarixi və vaxtının 2022-ci il 01 dekabr saat 15:00-a təyin olunduğu nəzərə alınsın.

***Tender komissiyası***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6506
Sifariş 3209
Qiymәti 40 qəpik